**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**“Azərbaycan Respublikasının xarici-iqtisadi əlaqələrinin gömrük taarif tənzimlənmə sistemi və onun təkmilləşdirilməsi yolları”**

**mövzusunda**

# MAGİSTR DİSSERTASİYASI

**Məhərrəmli İdris Gülmalı**

**BAKI – 2019**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

*Əlyazması hüququnda*

BMDM-in direktoru

dos.Əhmədov Fariz Saleh oğlu

Təsdiq edirəm

_______________ (imza)

"___" __________ 20__-cu il

Məhərrəmli İdris oğlunun

**"Azərbaycan Respublikasının xarici-iqtisadi əlaqələrinin gömrük taarif tənzimlənmə sistemi və onun təkmilləşdirilməsi yolları"**

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı: 060401 – Gömrük işi**

**Magistrant** **Elmi rəhbər: i.e.dos.Səmədova M.T**

**Məhərrəmli İdris Gülmalı** **imza**

**Proqram rəhbəri** **Kafedra müdiri i.e.d., prof. Kəlbiyev Y.A.**

**i.f.d., b/m. Nəcəfova K.A.**

**imza** **imza**

**BAKI – 2019**

## CUSTOMS CONTROL SYSTEM OF FOREIGN ECONOMIC RELATIONS OF THE REPUBLIC OF AZERBAIJAN AND WAYS OF ITS IMPROVEMENT


**Summary**

**The actuality of the subject. In present period, foreign economic relations play an important role. Foreign economic relations of each country provide its economy development. Our country is establishing international relations with a number of international organizations and states. One of them is the World Trade Organization. This link will help to eliminate problems that arise in customs regulations. One of the most urgent issues in current period is capacity and location of this organization. In modern period foreign economic relations are topical. This urgency has been thoroughly investigated in subject of dissertation.**

**Purpose and Objectives of the Study: The aim of study is to investigate foreign economic relations. Studying role of foreign economic relations in economy of country.**

**Research Methods: The comparative analysis of foreign economic relations of Republic of Azerbaijan with world countries. From this point of view, analysis, synthesis, comparative analysis methods were used in study.**

**Research Information: Normative-legal acts related to customs business constitute basis of research database. The President's orders and textbooks were also analyzed.**

**Research Restrictions: I wanted to find a book on Danish foreign affairs, but I couldn’t find it.**

**Results of the study: The role of foreign economic relations in customs system and its results have been achieved.**

**Scientific-practical significance of the results: As a result of research, it has been established that the leading countries of world have been analyzed by Azerbaijan's foreign economic relations. As a result, Azerbaijan's economic development is dynamic and ahead.**



**Key words: foreign trade, customs, reform.**

## İXTİSARLAR

| | |
|---|---|
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **BƏƏ** | Birləşmiş Ərəb Əmirlikləri |
| **BİM** | Beynəlxalq İqtisadi Əlaqələr |
| **CM** | Cinayət Məcəlləsi |
| **DGK** | Dövlət Gömrük Komitəsi |
| **ƏDV** | Əlavə Dəyər Vergisi |
| **İEOÖ** | İnkişaf Etməkdə Olan Ölkələr |
| **İKT** | İnformasiya Kommunikasiya Texnologiyaları |
| **MDB** | Müstəqil Dövlətlər Birliyi |
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **ÜTT** | Ümumdünya Ticarət Təşkilatı |
| **ÜGT** | Ümumdünya Gömrük Təşkilatı |

## MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| | **GİRİŞ......** | **7** |
| **I FƏSİL** | **XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİN TƏNZİMLƏNMƏSİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI......** | **11** |
| 1.1. | Xarici iqtisadi əlaqələrin tənzimlənməsi və müasir dövrdə olan konsepsiyaları…… | 11 |
| 1.2. | Xarici iqtisadi tənzimlənmə sistemində beynəlxalq hüquq normaları…… | 20 |
| 1.3. | Dövlətin xarici-ticarətinin tənzimlənməsinin nəzəri-konseptual əsasları və metodları…… | 24 |
| **II FƏSİL** | **ÖLKƏNİN XARİCİ İQTİSADİ ƏLAQƏLƏR SİSTEMİNİN TƏNZİMLƏNMƏSİ VƏ MÜASİR VƏZİYYƏTİ......** | 30 |
| 2.1. | Gömrük xidməti və onun xarici iqtisadi əlaqələrin dövlət tənzimlənməsindəki yeri...... | 30 |
| 2.2. | Xarici iqtisadi əlaqələrin gömrük tarif tənzimlənməsinin müasir vəziyyəti…… | 39 |
| 2.3. | Azərbaycanın xarici iqtisadi əlaqələrinin inkişaf etdirilməsi üçün əsas amillər...... | 45 |
| **III FƏSİL** | **GÖMRÜK TARİF TƏNZİMLƏNMƏSİNİN VƏ XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ......** | **48** |
| 3.1. | Regional iqtisadi əməkdaşlığın genişləndiyi bir şəraitdə Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin tənzimlənməsi məsələləri...... | 48 |
| 3.2. | Azərbaycan Respublikasının ÜTT ilə iqtisadi əməkdaşlığı və xarici iqtisadi əlaqələrin gömrük tarif tənzimlənməsindəki inkişafının əsas istiqamətləri…… | 55 |
| | NƏTİCƏ VƏ TƏKLİFLƏR...... | 60 |
| | İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT...... | 62 |
| | ƏLAVƏLƏR...... | 64 |
| | Cədvəllərin siyahısı...... | 65 |
| | Şəkillərin siyahısı...... | 65 |
| | Qrafiklərin siyahısı...... | 65 |

## GİRİŞ

**Mövzunun aktuallığı.** Daim dəyişib inkişaf edən dünyada beynəlxalq münasibətlərin rolu böyükdür. Xarici əlaqələr əsasən dünyanın inkişaf etmiş ölkələri ilə baş verir. Burada gömrük işi, iqtisadi əlaqələr önəmli yerlərdən birini tutur.

Ölkəmiz bir sıra beynəlxalq təşkilatlar və dövlətlərlə xarici əlaqələr qurur. Bunlardan biri də Ümumdünya Ticarət Təşkilatıdır. Bu əlaqə gömrük taarif tənzimlənməsində özünü göstərən problemləri aradan qaldırmağa imkan verir. İndiki dövrdə aktuallığı ilə seçilən məsələlərdən biri bu təşkilatın imkanları və yeri təşkil edir. Respublikamızın bu təşkilata üzv seçilməsi və onun ölkəmiz üçün təsirlərinin müsbət və ya mənfi olduğunu araşdırmaq tələb olunur.

Qloballaşmanın baş verdiyi dünyada xarici iqtisadi əlaqələr getdikcə genişlənir. Bu genişlənmə gömrük işinə də öz təsirini göstərir, təsirsiz ötüşmür. Bir iqtisadi sistemi təşkil edən bu münasibətlər hər bir ölkənin, xüsusilə respublikamızın prioritet inkişafı üçün normal təkan verir.

Xarici iqtisadi əlaqələr anlayışını bəzən xarici iqtisadi fəaliyyət və beynəlxalq iqtisadi münasibətlər kimi də işlədirlər. Bu anlayışlar müasir dövrdə də bir-birilə qarşılıqlı əlaqədə və vəhdətdədirlər.

Xarici iqtisadi əlaqələr prosesində müəssisə və təşkilatlar idxal və ixraca böyük önəm verir. Bu əlaqələrdə idxal və ixracın balansı və tənzimlənməsi də dəqiqləşdirilir. Bütün təsərrüfat fəaliyyətini ortaya çıxarır.

Dissertasiya işinin mövzusu Azərbaycan Respublikasının xarici-iqtisadi əlaqələrinin gömrük taarif tənzimlənmə sistemi və onun təkmilləşdirilməsi adlanır. Yuxarıda deyilənlərə əsasən dissertasiya işinin mövzusu kifayət qədər aktualdır. Onun aktuallığının başlıca səbəbi respublikamzıda mövzu ilə əlaqəli tam şəkildə tədqiqatın aparılmamasıdır. Bu da tədqiqatı şərtləndirmişdir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi.** Azərbaycan Respublikasının xarici-iqtisadi əlaqələrinin gömrük taarif tənzimlənmə sistemi və onun təkmilləşdirilməsi yollarının öyrənilməsi sahəsində bir sıra alimlərin, o cümlədən

də K. Heydərovun, Ş.Şəkərəliyevin elmi əsərlərində və kitablarında kifayət qədər təhlillərə, araşdırmalara rast gəlmək mümkündür.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi Azərbaycan Respublikasının xarici-iqtisadi əlaqələrinin gömrük taarif tənzimlənmə sistemi və onun təkmilləşdirilməsi yollarının müəyyən edilməsidir. Dissertasiya işinin məqsədinə çatmaq üçün aşağıdakı əsas vəzifələrin icrası zəruridir:

- Xarici iqtisadi əlaqələrin tənzimlənməsi və müasir dövrdə olan konsepsiyalarını təhlil etmək;
- Xarici iqtisadi tənzimlənmə sistemində beynəlxalq hüquq normalarını müəyyən etmək;
- Dövlətin xarici-ticarətinin tənzimlənməsinin nəzəri-konseptual əsasları və metodlarını öyrənmək;
- Gömrük xidməti və onun xarici iqtisadi əlaqələrin dövlət tənzimlənməsindəki yerini müəyyənləşdirmək;
- Xarici iqtisadi əlaqələrin gömrük tarif tənzimlənməsinin müasir vəziyyətini tədqiq etmək;
- Azərbaycanın xarici iqtisadi əlaqələrinin inkişaf etdirilməsi üçün əsas amilləri araşdırmaq;
- Regional iqtisadi əməkdaşlığın genişləndiyi bir şəraitdə Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin tənzimlənməsi məsələlərini müəyyənləşdirmək;
- Azərbaycan Respublikasının ÜTT ilə iqtisadi əməkdaşlığı və xarici iqtisadi əlaqələrin gömrük tarif tənzimlənməsindəki inkişafının əsas istiqamətlərini təhlil etmək.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin obyekti gömrük-taarif tənzimləmə sistemindən ibarətdir. Tədqiqat işinin predmetinin əsasında isə Azərbaycan Respublikasının xarici-iqtisadi əlaqələrinin gömrük taarif tənzimlənmə sistemi və onun təkmilləşdirilməsi yolları dayanır.

**Tədqiqatın metodları.** İşin yazılmasında analiz - sintez, həmçinin induksiya - deduksiya metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazası.** İşin informasiya bazasının əsasında Azərbaycan Respublikası Prezidentinin və Nazirlər Kabinetinin iqtisadiyyat, dünya iqtisadiyyatı və digər aidiyyatı sahələrində qəbul etdikləri fərman, sərəncam, qərar və digər metodiki təlimatlardan ibarət normativ - hüquqi aktlar, elmi fəaliyyətlə məşğul olan alimlərin bu sferada problemlərin təhlili və qiymətləndirilməsinə həsr olunmuş elmi əsərləri (monoqrafiya, dissertasiya, məqalə), həmçinin azərbaycan, rus və ingilis dillərində olan digər iqtisadi ədəbiyyatlar təşkil edir. Azərbaycan Respublikasının xarici-iqtisadi əlaqələrinin gömrük taarif tənzimlənmə sistemi və onun təkmilləşdirilməsi yollarının qarşılıqlı əlaqəsini dərsliklər və dərs vəsaitləri təşkil edir.

**Tədqiqatın məhdudiyyətləri.** Danimarkanın xarici əlaqələri haqqında kitab tapmaq istədim, amma tapa bilmədim. Bu da informasiya bazasında və nəzəri-metodoloji hissənin zəifliyinə səbəb ola bilər.

**Nəticələrin elmi-praktiki əhəmiyyəti.** Tədqiqatın aparılması ilə əlaqədar olaraq bir sıra nəticələr əldə edilmişdir. Bu nəticələrin elmi-praktiki əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycanın xarici iqtisadi əlaqələri gömrük işinə əsaslandığından burada iqtisadi əlaqələr genişlənir. Hər bir ölkənin gömrük sistemində onun təhlükəsizliyi, rüsumu və taarif tənzimlənməsi də önəmli olduğundan bu sistemin təkmilləşdirilməsinə ehtiyac vardır. Buna görə də praktiki baxımdan gömrük taarifləri idxal və ixracda önəmli yer tutur.

**Dissertasiya işinin strukturu və həcmi.** Dissertasiya işi giriş, 3 fəsil, nəticə və təkliflərdən, eləcə də sonda tədqiqat işində istifadə olunmuş ədəbiyyatların siyahısından ibarətdir. Ümumilikdə dissertasiya işi 64 səhifə həcmindədir.

Girişdə mövzunun aktuallığı əsaslandırılır, işlənmə vəziyyəti, informasiya bazası, obyekti, predmeti, məqsədi və vəzifələri, elmi və praktiki əhəmiyyəti müəyyən edilir, tədqiqatın metodları xarakterizə olunur.

Dissertasiya işinin I fəslində "Xarici iqtisadi əlaqələrin tənzimlənməsinin nəzəri-metodoloji əsasları" araşdırılmışdır. Xarici iqtisadi əlaqələrin tənzim - lənməsi və müasir dövrdə olan konsepsiyaları tədqiq olunmuşdur.

Dissertasiya işinin II fəslində "Ölkənin xarici iqtisadi əlaqələr sisteminin tənzimlənməsi və müasir vəziyyəti" öyrənilmişdir. Gömrük xidməti, onun xarici iqtisadi əlaqələrinin dövlət tənzimlənməsindəki yeri və xarici iqtisadi əlaqələrinin gömrük tarif tənzimlənməsinin müasir vəziyyəti, Azərbaycanın xarici iqtisadi əlaqələrinin inkişaf etdirilməsi üçün əsas amillər tədqiq edilmişdir.

Dissertasiya işinin III fəslində "Gömrük tarif tənzimlənməsinin və xarici iqtisadi əlaqələrin təkmilləşdirilməsi istiqamətləri" müəyyənləşdirilmişdir. Bu fəsildə xarici iqtisadi əlaqələrin təkmilləşdirilməsi üçün görülən işlər təhlil olunmuşdur.

# I FƏSİL. XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİN TƏNZİMLƏNMƏSİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

## 1.1.Xarici iqtisadi əlaqələrin tənzimlənməsi və müasir dövrdə olan konsepsiyaları

Dünyanın qloballaşan bir dövründə xarici iqtisadi əlaqələr önəmli yer tutur. Bu önəm onun iqtisadi inkişafı təmin etməsində ifadə olunur. Xarici iqtisadi əlaqələr hər bir ölkənin iqtisadiyyatına təkan verir. Səmərəli formada təşkil olunan bu əlaqələr bir sistem təşkil edir. Bu sistemin mövcudluğu hər bir ölkənin iqtisadiyyatının inkişafına gətirib çıxarır.

İqtisadiyyatla bağlı bir sıra lüğətlərə müraciət etsək görərik ki, xarici iqtisadi əlaqələr bir anlayış kimi bir neçə mənanı ifadə edə bilir. Xarici iqtisadi fəaliyyət və beynəlxalq xarici əlaqələr də buraya daxildir.

Çağdaş dövrdə özünü göstərən inkişaf beynəlxalq istehsala, xammala və idxal-ixrac proseslərinə də təsir edir. Təsərrüfat fəaliyyəti elə bir sferadır ki, onun vasitəsilə inkişaf qaçınılmazdır. Beynəlxalq iqtisadi əlaqələr iqtisadi əlaqələrin xüsusi çəkisini təşkil edir.

Beynəlxalq əlaqələr dünya iqtisadiyyatında investisiyanın güclənməsinə, valyuta sisteminin təkmilləşməsinə və kredit münasibətlərinə təsir göstərdiyindən burada xarici iqtisadi əlaqələrin inkişafına səbəb olur. Əlaqələrin genişlənməsi üçün borcalma və bu borcların ödənilməsi sistemi əməkdaşlıqda önəmli yer tutur (Маховикова Г. А.,2016).

Dünyanın inkişaf etmiş ölkələrində xammal, əmtəə və istehsal üçlüyü xüsusi beynəlxalq sistemi təşkil edir. Burada miqrasiya, işsizlik və başqa amillər də təsirini göstərir.

İşsizliyin iqtisadiyyaın inkişafına mənfi təsir göstərdiyini nəzərə almış olsaq o zaman qeyd edə bilərik ki, sahibkarlığın inkişaf etməsi işsizliyi azaldan amillərdəndir. Belə ki, sahibkarlığın inkişaf etməsi üçün bir sıra göstəricilərin olması vacibdir. Bunlara aiddir:

- Pul-əmtəə münasibətlərinin inkişafı;
- Maddi-texniki bazanın tam olması;

- Sahibkarlara maddi dəstəklərin verilməsi və s.

Yuxarıda qeyd etdiyimiz kimi sahibkarlığın inkişafı həm də ona görə zəruridir ki, o xarici əlaqələri həm iqtisadi, həm də sosial baxımdan inkişaf etdirir. Texnologiyanın inkişafı da xarici əlaqələri gücləndirir. Burada əsas məsələ bu prosesin düzgün idarə olunmasıdır. Analoqu olmayan ideyaların irəli sürülməsi də xarici iqtisadi əlaqələrin inkişafına yönəlir.

Xarici iqtisadi əlaqələrin tənzimlənməsi təsərrüfat fəaliyyətində mübadilə mexanizmi kimi çıxış edir. İstehsal və onun bölüşdürülməsi mexanizmi xarici iqtisadi əlaqələrin mərhələli şəkildə inkişafını sürətləndirir. Burada bir sıra fərqlər özünü göstərir. Bunlar aşağıdakılardır:

- Dövlətin xarici sferada yürütdüyü siyasət;
- Diplomatik münasibətlərin əsas dinamik qüvvəsi;
- Dövlətin idarəçiliyinin əmək bölgüsünə əsaslanması və s.

Xarici iqtisadi əlaqələr deyəndə nə başa düşülür? Xarici iqtisadi əlaqələr ölkə iqtisadiyyatının beynəlxalq sferada inkişafa nail olması məqsədilə apardığı siyasətin dünya bazarlarına təsiri kimi anlaşılır. Bu əlaqələr beynəlxalq əmək bölgüsü və sahibkarlıq kimi sistemlərə əsaslanır. Burada normativ-hüquqi aktlar və yaradılan mühit önəmli rol oynayır.

Turizmin inkişafı, investisiyaların, xüsusilə xarici investisiyaların qoyu -luşu, İKT və intellektual inkişaf xarici əlaqələri daha da gücləndirir. Beynəlxalq miqyasda baxsaq deyə bilərik ki, intellektual inkişaf, yəni əqli cəhətdən inkişaf etmiş beyinlər qazandırır. Buna görə də bu baxımdan inkişaf demək olar ki, əlaqələrin mürəkkəbləşməsinin qarşısını alır.

Ümumi şəkildə qeyd edək ki, iqtisadi fəaliyyətdə investisiya amilinin rolu geniş təhlil olunmalıdır. Bu təhlildə əsas göstərici kimi şirkət və müəssisələrin iqtisadi fəaliyyətdə oynayacaqları rol investisiya ilə mümkündür və onunla müəyyən olunur (Маховикова Г. А.,2016:s.25) .

Maliyyə və istehsal amilləri bir-biri ilə qarşılıqlı şəkildə vəhdətdədirlər. Bu cəhəti nəzərə alaraq deyə bilərik ki, şirkətin xarici əlaqələri kompleks qiymətləndirmə istiqamətində inkişafa yönəlir. Burada müəssisə və təşkilatın

formaları və onların fəaliyyətinin səmərə vermək baxımından əsası götürülərək təhlil olunur. Bir dövlətin və ya müəssisənin dinamik inkişafı məhz qiymətlən - dirmə əsasında baş verir.

Təşkilatı baxımdan xarici iqtisadi əlaqələr şaquli və üfüqi istiqamətdə gedir. Belə ki, burada təsirin öyrənilməsi təhlil məqsədinə görə aparılır. Xarici iqtisadi əlaqələrdə müəssisənin vəziyyətini qiymətləndirmək üçün aparılan təhlilin məqsədlərinə aşağıda sadalananlar daxildir:

**Şəkil 1: Təhlilin məqsədləri**




**Mənbə:** A.M. Məhərrəmov, H.H. Aslanov "Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi" mənbəyi əsasında "Müəllif tərəfindən tərtib edilmişdir".

Təhlilin aparılmasında fəaliyyətə təsir göstərən amillər müəyyən edilmişdir. Gələcək fəaliyyətin mürəkkəbləşməsinin qarşısını ala bilər:

- Maliyyə təminatı;
- Aktiv ödəyicilərin olması;
- Borcların vaxtında ödənilməsi;
- Adekvat əzəvləyicinin olması və s.

Müəssisə və ya ölkələrin xarici iqtisadi əlaqələri ticarət əməliyyat - larının nəticəsində inkişaf edir. Müasir dövrdə investorların olması və onların xüsusi dəstək göstərməsi xarici əlaqələri daha da genişləndirir.

Müasir dövrdə xarici iqtisadi əlaqələr bir sıra fəaliyyət amilləri ilə əlaqədardır: (Şəkərəliyev A.Ş., Şəkərəliyeva Z.A.,2005)

- Beynəlxalq sərgilərin təşkil olunması;
- Sərgilərdə iştirak etmək;
- Xidmətlərin xüsusiləşdirilməsi;
- Beynəlxalq kommersiya.

Beynəlxalq sferada xidmətlərin göstərilməsi nəqiyyatdan istifadə edilmə - sinin, turizm imkanlarından yararlanmanın, informasiya, marketinq, sığorta və lizinq xidmətlərinin önəmini artırır.

Ticarət və iqtisadi əlaqələrdə idxal və ixrac əməliyyatları, əmtəə mübadiləsi və kompensasiya olunması geniş yer tutur. Belə ki, xarici iqtisadi fəaliyyətin təhlil olunması bir sıra vəzifələrin icrasını zəruri edir:

- İdxalın həcminin azaldılmasını təmin etmək;
- İxracın həcminin artırılması üçün şərait yaratmaq;
- İdxal sistemində olan malların xüsusi çəkisini müəyyən etmək;
- İdxal və ixracdakı göstəricilərin dinamikasını qiymətləndirib analiz etmək;
- Ölkənin iqtisadi sistemində ümumi həcmində idxal-ixrac amillərinin yerini araşdırmaq;
- Fəal ixracın başlıca amilini öyrənmək;
- Bazarın əsas iştirakçılarını müəyyənləşdirmək və onların xüsusi çəkisini aşkarlamaq;
- İdxal və ixracda məhsulun dinamikasını və tiplərini təhlil etmək;
- Mövsümlə əlaqədar olaraq məhsulun göstəricilərini müəyyən etmək.

İqtisadi təsərrüfat sistemində dünya ölkələrinin həcmi böyükdür. Burada milli bazarların dünya bazarlarında yeri və iqtisadi siyasəti araşdırılır.

Xarici iqtisadi əlaqələr bir sistem kimi beynəlxalq təcrübənin əsasını təşkil edir. Bu zaman deməli, beynəlxalq təcrübə araşdırılmalıdır. Belə qənaətə gələ bilərik ki, əmək bölgüsü və təsərrüfat sistemi beynəlmiləlləşmişdir.

Xarici iqtisadi əlaqələr sistemində maraqlar ön plana çəkilərək beynəlxalq səviyyəli bir siyasət aparılır. Ölkələr arasında ideoloji, dini, siyasi və s. kimi psixoloji amillər xarici iqtisadi əlaqələrə mənfi və ya müsbət təsir göstərə bilir. Burada əsas məsələ qarşıda duran vəzifələri aydın şəkildə dərk etməkdir.

Xarici iqtisadi əlaqələrin təkmilləşdirilməsi istiqamətində bir sıra işlər görülür. Buna aşağıdakılar aiddir:

1. Dünya iqtisadiyyatında baş verən inkişafın əsas inkişaf istiqamətlərini öyrənmək;
2. Tədiyyə balansının təmin olunmasının yol və perspektivlərini təhlil etmək;
3. Xarici ticarətin həcmi və quruluşunu müəyyən etmək;
4. Elmin texnika ilə birləşdirilməsi, inteqrasiya olunması əməkdaşlığın inkişafına yönəltmək.

Xarici siyasətdə vahid mexanizm yoxdur. Burada tədiyyə balansı, ticarət, xarici investisiyalar və xarici xammal amillərini funksionallıq baxımından ayırd etmək lazımdır.

Dünyanın inkişaf etmiş ölkələrində əsrlər boyu özünü göstərən inkişaf öz çevikliyi və müasirliyi ilə seçilir. İstehsal prosesində səmərəli inkişaf özünün zəruriliyi ilə seçilir. Qeyri-bərabər baş verən inkişaf xarici ticarətin texnoloji əsasına mənfi təsir göstərə bilir.

İstehsal amilləri və ya istehsal ehtiyatları beynəlxalq mobilliyin təminatçısı kimi qiymətləndirilir. Xarici iqtisadi əlaqələrdə milli resurs amili olduqca önəmlidir. Belə ki, onların kompleks şəkildə əlaqələndirilməsi xarici əlaqələri gücləndirməyə nail ola bilər.

Xarici iqtisadi əlaqələr zərurətdən yarana bilər. Belə ki, zərurət deyəndə qarşıdakı məqsəd və ya vəzifə nəzərdə tutulur. Burada ehtiyac olan əsas məsələlər araşdırılmalıdır. Daxili və xarici ehtiyacların olması və təhrik etməsi nəticəsində əlaqələr inkişaf edir.

Fərz edək ki, xarici amil daxili amildən əmələ gəlirsə və onun hesabına üstünlük təşkil edib çoxalırsa bu investisiyaya zəmin yaradır. Heç bir dövlət bunun üçün başqa dövlətə üz tutmaz. İxracın genişlənməsi nəticəsində bir sıra mexanizmlər özünü göstərə bilir. Bunlar əsasən əməyin məhsuldar olması ilə əlaqəlidir. İstehlakın məsrəflərə səbəb olması milli müstəvidə iqtisadi və sosial münasibətləri formalaşdırır. Burada başlıca meyar əmtəənin düzgün olaraq bölüşdürülməsidir.

Xarici iqtisadi əlaqələrin əsasını xarici ticarət ilə bağlı məsələlər təşkil edir. İxtisaslaşma baxımından inkişaf baş verəndə milli meyar və məhsuldarlıq nəzərə alınır. Xarici əlaqələrin təşkil olunmasında fayda götürmək və ya fayda vermək məsələsi olduqca mübahisəli bir məsələdir. Burada fayda dedikdə iqtisadi baxımdan artım nəzərdə tutulur. Mövcud imkanlardan istifadə edərək üsniyyət qurmaq və struktur dəyişiklik etmək əhalinin iqtisadi baxımdan rifahını ödəyə bilir.

Xarici iqtisadi əlaqələrin tənzimlənməsinin müasir dövr üçün bir sıra nəzəriyyələri vardır. Bu nəzəriyyələr uzun inkişaf yolu keçmişdir. Əvvəllər, yəni XIX əsrdə xarici ticarətin xüsusi nəzəriyyəsi mövcud olmamışdır. Təkamül prosesində baş qaldıran inkişaf bir yox bir neçə nəzəriyyənin yaranmasına səbəb olmuşdur.

Xarici iqtisadi əlaqələrin tənzimlənməsində nəzəriyyələrin bir sistem təşkil etməsi onun inkişaf mexanizmini təşkil edir. Xarici iqtisadi əlaqələrin nəzəriyyələrindən biri klassik nəzəriyyələrdir. Bu nəzəriyyələr beş istiqamət üzrə inkişaf edir. Merkantilizmə görə, xarici iqtisadi əlaqələr dünya iqtisadiyyatını xarici qüvvələr əsasında inkişaf etdirir.

Fiziokratizmdə isə xarici qüvvələr xarici iqtisadi əlaqələri inkişaf etdirmir. Sadəcə iqtisadi prosesə yol göstərir. Mütləq üstünlüklər nəzəriyyəsində

rəqabət əsasında inkişaf ön plana çəkilir. Belə ki, rəqabət deyəndə, bazar mexanizmini gücləndirən amil nəzərdə tutulur. Rəqabət daxili və xarici bazarda ayrıseçkiliyin yaranmasına gətirib çıxarır. Müqayisəli üstünlüklər nəzəriyyəsində analiz etmə və müqayisəni tapma əsasında inkişaf baş verir. Bu əsasən dünya və milli iqtisadiyyatın fonunda özünü göstərir.

Beynəlxalq dəyər nəzəriyyəsində keyfiyyət və kəmiyyət amilləri əsas götürülür. Belə ki, bildiyimiz kimi kəmiyyət və keyfiyyət biri-biri ilə tərs mütənasiblik təşkil edir. Kəmiyyət və keyfiyyətə görə amillər daim dəyişir. Bu dəyişkənlik nəticəsində inkişaf baş verir. Keyfiyyət hər bir inkişafın təməlini təşkil edir. Beynəlxalq sistemdə keyfiyyətə çox önəm verilir. Bu keyfiyyət müxtəlif göstəricilərə aid edilə bilər.

Neoklassik nəzəriyyələrə isə istehsal amilləri nəzəriyyəsi, istehsal amillərinin nisbəti nəzəriyyəsi, istehsal amillərinin qiymətlərinin bərabərləşdirilməsi teoremi və müqayisəli üstünlüklər nəzəriyyəsinin daha daha çox miqdarda ölkə və əmtəələrə intişar edilməsi aiddir.

İstehsal amilləri nəzəriyyəsinə xammalın keyfiyyət göstəriciləri, xidmət və başqa amillər aid edilir. Xammalın keyfiyyətli olması məhsula olan tələbatı artırır. Buna görə də bu nəzəriyyə demək olar ki, bütün nəzəriyyələrdən ön plandadır.

İstehsal amillərinin nisbəti nəzəriyyəsinə görə xidmət və xammalın nisbəti əsas götürülür. Burada diqqəti cəlb edən cəhət xidmətin xammaldan asılı olmasıdır.

Müqayisəli üstünlüklər nəzəriyyəsinin daha çox miqdarda ölkə və əmtəələrə intişar edilməsində meyar kimi əmtəə götürülür. Əmtəənin inkişafına nail olmaq üçün iqtisadiyyatda islahatların baş tutmasında ifadə olunur.

Müasir nəzəriyyələrə isə müasir şəraitdə klassik nəzəriyyələrin prinsiplərinin zənginləşdirilməsi, beynəlxalq ticarətin yeni problemlərinin klassik mövqedən tədqiq edilməsi və beynəlxalq ticarətin müasir alternativ xüsusiyyətlərinin öyrənilməsi aid edilir.

Klassik nəzəriyyələrin prinsiplərinin zənginləşdirilməsi dedikdə rəqabət, kəmiyyət və keyfiyyət amillərindən yaranan bir sıra prinsiplər nəzərdə tutulur. Beynəlxalq ticarətin yeni problemlərinin klassik mövqedən araşdırılmasında əsas meyar kimi maliyyə və büdcə imkanlarının tam səfərbər olunması nəticəsində problemlərin aradan qaldırılması əsasında xarici iqtisadi əlaqələrin inkişafını təmin edir. Beynəlxalq ticarətin müasir alternativ xüsusiyyətlərinin öyrənilməsi deyəndə inkişaf dinamikası nəzərdə tutulur.

Məhsuldarlığı müəyyən edən amillər inkişafın səviyyəsini də müəyyən edir. Burada inkişaf səviyyəsi təbii ki, bir-birindən seçilir. Dayanıqlı rəqabət bazarında əsas cəhət onun qiymətlər sisteminin dünya standartlarına uyğun olmasındadır. Dünya bazarlarında önəmli yer tutan məhsullar istehsalın çox hissəsini müəyyən edir. Məhsuldarlığın çox olması məsrəflərin azalmasına da səbəb olur.

Ölkəmizdə 28 növ torpaq vardır. Bu torpaqlar öz bərəkətliliyi, münbit olmasına görə fərqlənir. Əlbəttə ki, rənglərinə görə də seçilirlər. Bu fərq onların nə qədər münbit olub məhsuldarlığının göstəricisidir. Təbii iqlim və münbit şərait müxtəlif növ məhsulların mükəmməl yetişməsinə imkan yaradır. Bu məhsullara qoz, şabalıd, çay, badam, pambıq, fındıq və sitrus bitkiləri aid edilir. Bütün bu məhsullar da xarici iqtisadi əlaqəli genişləndirir.

Xarici iqtisadi əlaqələri inkişaf etdirmək kooperasiya və maliyyə baxımından da dünya bazarında önəmli rol oynayır. Buna görə də xarici iqtisadi əlaqələri tənzimləmək o qədər də çətin deyildir. Bu əlaqələr ilə idarəetmə elementləri gücləndiyindən ölkədə dinamik inkişaf özünü göstərir. Ölkə valyuta, kredit və investisiya qoyuluşları hesabına inkişaf edir.

### 1.2. Xarici iqtisadi tənzimlənmə sistemində beynəlxalq hüquq normaları

Xarici iqtisadi əlaqələrin tənzimlənməsi sistemində beynəlxalq hüquq normaları önəmli yeri tutur. Bu normalar modern zamana kimi təşəkkül tapan iqtisadi və hüquqi mexanizmlərin bir-birinə olan təsiri nəticəsində ortaya çıxmışdır. Ümumi formada desək, hüquqi sistem adamların rəftar və davranışına

təsir göstərir. Başqa şəkildə isə hüquqi sistem iqtisadi sistemə də təsir edərək onu dəyişdirir.

İqtisadi sistem həm şəxslərin davranışını, rifahını yaxşılaşdırmaq üçün vardır. Başqa anlamda iqtisadi sistem stimullar sistemi də adlanır. Hüquqi sistem nə qədər iqtisadi sistemə təsir göstərsə də məhdudiyyətlər ilə zəngindir. Cəmiyyətdəki ciddi dəyişikliklərə səbəb ola biləcək əsas göstəricilərdir. Bir çox baxımdan dünyanın qabaqcıl ölkələrində bir sıra əlaqələr fərqli prizmalardan baxılıb araşdırılmışdır. Məsələn, ABŞ-da bütün məsələlər iqtisadi və hüquqi sistemin əlaqəsindən meydana çıxır.

Hüquq cəmiyyətin institutu kimi özünü göstərir. Qeyd edək ki, Fransada iqtisadi hüquq adlı fənn də tədris olunur. Bunun nə dərəcədə önəmli olduğunun bir daha şahidi oluruq.

Mahiyyətinə varsaq, iqtisadi hüquq cəmiyyətin ehtiyacından yaranır. Belə ki, o cəmiyyətdəki bölgü, mübadilə və istehlak kimi proseslərdə hüquq normalarını tənzimləyir. İqtisadi hüquq təktərəfli inkişafa cəhd etmir. Onun sahəsi genişdir. İnsanların həyat fəaliyyətinə yönəldiyindən buradakı müxtəliflik diqqəti xüsusilə cəlb edir.

Son zamanlarda inkişaf sürətli şəkildə baş verir. Hər bir sahədə özünü göstərən inkişaf, xüsusilə iqtisadi sahədə dinamikliyi ilə seçilir. İnvestorlar iqtisadiyyatın inkişaf etməsində maraqlıdırlar. Onların dəstəyi nəticəsində iqtisadiyyat inkişaf edə və iqtisadçı mütəxəssislər yetişdirilə bilər.

İqtisadi hüquqda iqtisadi metodların təhlili və onların təsir mexanizmi araşdırılır. İqtisadi hüququn bir sistem təşkil etməsi arzu olunan davranışın vasitəsi kimi çıxış edir (Şəkərəliyev A.Ş., Şəkərəliyeva Z.A.,2005).

Ümumi formada deyək ki, iqtisadi mühitdə hüquqla tənzimləmə münasibətləri formalaşdırır. Bu münasibətlər üç qrupda birləşdirilir:

- İnsanın öz fəaliyyətini yerinə yetirməsi zamanı ortaya çıxan münasibətlər;
- İş yerlərinin hüquqi və iqtisadi idarəsi baxımından yaranan münasibətlər;

- Cəmiyyətin və şəxsi maraqların qorunması üçün iqtisadi sistemi tənzimləyən münasibətlər.

Hüquqi tənzimləmə baxımından iqtisadi fəaliyyətdə hüquqi və fiziki şəxslər ayrı-ayrı iştirak edirlər. Onlar hüquqi tənzimləmənin subyektlər adlanır. Bunlarla yanaşı, dövlət də subyekt kimi özünü göstərir.

Hüquq sistemləri iqtisadi əlaqələrə geniş formada təsir göstərir. Bu təsirlərin araşdırılması ilə məşğul olan alimlər, iqtisadçılar müxtəlif yanaşma - lardan çıxış etmişdilər. Bu alimlərə F.R.Mişelmen, L.A.Korhazeri misal göstərmək olar.

Ənənəvi olan hüquqi və iqtisadi yanaşmalar arasında fərq özünü göstərir. Bu yanaşmalarda əsasən induktivlik özünü göstərir. Belə ki, faktlara əsaslanan yanaşmalar dəqiqliyi ilə seçilir. Ümumi formada, mülki hüququn iqtisadi hüquqdan neoinstitutsionalist nəzəriyyə baxımından fərqlənməsi iqtisadi münasibətləri beynəlxalq çərçivədə inkişaf etdirmişdir.

Belə bir fikri qeyd etmək lazımdır ki, iqtisadi hüququn xarici iqtisadi əlaqələrdəki rolu haqqında ilk araşdırmalar italyan iqtisadçı R.A.Poznerə məxsus olmuşdur. Onun fərziyyələrinə görə iqtisadi hüququn xarici iqtisadi əlaqələrdəki rolu onu tənzimləməsi ilə bağlıdır. Bu tənzimləmədə səmərəlilik özünü göstərə bilir. Burada ümumi olaraq məqsədə çatmaq və ona xidmət etmək nəzərdə tutulur.

Tədqiqatçılar sübut edirlər ki, hüquq normaları bir sistem təşkil edərək xarici iqtisadi əlaqələri tənzimləyirlər. Burada əsas cəhət resursların düzgün bölünməsinə əsaslanır. Buna misal kimi, L.A.Korhazeri hüququn araşdırılması ilə məşğul olan zaman "davranış hipotezi" nin mənbəyi kimi iqtisadiyyatın əsas götürülməsini təklif etmişdir.

Xarici iqtisadi əlaqələrin tənzimlənməsində hüquqi sistemin təsiri müəyyən edilməlidir. Fundamental münasibətlərin əsasında tənzimləmə mexanizmləri durur. Bu da xarici iqtisadi əlaqələrin inkişafını şərtləndirir.

Tarixi baxımdan hüquqi və iqtisadi sistemin tənzimlənməsi qiymətli kağızlar bazarını, xarici iqtisadi əlaqələri inkişaf baxımından stimullaşdırır (Şəkərəliyev A.Ş., Şəkərəliyeva Z.A.,2005:s.39).

Ümumi şəkildə desək, xarici iqtisadi əlaqələrin tənzimlənməsində bir sıra üsullar və vasitələr vardır. Burada R.A.Poznerin irəli sürmüş olduğu fikirlər əsas götürülür. Çikaqo Universitetində apardığı tədqiqatlarında bir sıra məqamları fərqləndirmişdir. Bunlar aşağıdakılardan ibarətdir:

- Səməmərəlilik özü böyük bir mexanizm kimi xarici iqtisadi əlaqələri tənzimləyə bilir;
- Xəclərin düzgün idarə olunması xarici iqtisadi əlaqələri inkişaf etdirir;
- Hüquq normalarının təsiri idxal və ixracı ayrıca sistem kimi formalaşdırır;
- Qərarların qəbul edilməsində yeni islahat mexanizmlərinin irəli sürülməsi xarici iqtisadi əlaqələri bir az da təkmilləşdirir.

Bütün bunlardan əlavə bildirək ki, bu məqamlar Kouzmaar teoremində öz əksini tapmışdır. Burada xarici iqtisadi əlaqələrin tənzimlənməsinin əsasları kimi məsrəflərin düzgün idarə olunması nəzərdə tutulurdu. Xərclər sıfıra endirilərsə bu zaman əlaqələrdə əlavə xərcə ehtiyac qalmır.

Yuxarıda qeyd edilən məqamlar xarici iqtisadi əlaqələrdə qeyri-sabitliyi, qeyri-müəyyənliyi və subyektivizmi aradan qaldırır. Ümumi formada desək, müxtəlif yanaşmalar bir daha sübut edir ki, xarici iqtisadi əlaqələrin tənzimlənməsində əsas göstəricilərə və ideyalara diqqət edilməlidir.

Modern xarici iqtisadi əlaqələr sistemini xərclər kateqoriyası təşkil edir. Fiziki və hüquqi şəxslər də hüquqi sistemi təşkil etdiklərindən xarici iqtisadi əlaqələri tənzimləyirlər. Sosial xərclər problemi xarici iqtisadi əlaqələr üçün müəyyən dərəcədə maneə yaradırlar.

Hüquqi baxımdan idxal və ixrac olunan məhsullar xərc üzrə strategiyanın müəyyən edilməsinin əsaslarını dəyişdirə bilər. Xarici iqtisadi əlaqələrin

tənzimlənməsində istehsalçılar və istehakçılar arasında koordinasiya iki formada reallaşdırıla bilir:

**Şəkil 4: İstehsalçılar və istehlakçılar arasında əlaqənin koordinasiyası**




**Mənbə:** A.M. Məhərrəmov, H.H. Aslanov (2001) "Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi" mənbəyi əsasında "Müəllif tərəfindən tərtib edilmişdir".

Mütəşəkkil olmayan sistem və ya meyarlar məhsullara və onların qiymətlərinə də mənfi təsir göstərə bilir. Xammalın dayanıqlılığı və ucuz olması da ayrıca bir sistemi formalaşdıra bilir. Xərclərin idarə olunması xarici iqtisadi əlaqələrdə önəmli rol oynadığından onun təkmilləşmə mexanizminin öyrənilməsi zəruridir.

Xərclərin azaldılması məqsədilə ayrı bir mexanizm də öyrənilə bilir. Xarici iqtisadi əlaqələrin tənzimlənməsində deyilənlərdən əlavə bir sıra təhlillər də aparılmışdır. Belə ki, bir sıra ideyaların irəli sürülməsi zəruri amil kimi diqqəti cəlb etdiyindən onun aydınlaşdırılması da mütləqdir.

Xarici iqtisadi əlaqələrdə əsas məsələ onların düzgün idarə edilməsi ilə baş verir. Bu əlaqələrdə tənzimləmə mexanizminin təşkil olunması üçün də bir sıra meyarlar nəzərə alınaraq təkmilləşdirilməlidir.

## 1.3. Dövlətin xarici ticarətinin tənzimlənməsinin nəzəri-konseptual əsasları və metodları

Əsrlərdən bəri dünya ölkələri inkişafa can atmışlar. Dünya ölkələrinin inkişafı bir-birilə əlaqə sistemində baş verir. Dünya ölkələrinin biri digəri ilə

qarşılıqlı olaraq əlaqə yaradır. Çeviklik və ənənəvilik xarici ticarətdə sistem yaradan amillərdəndir. Hər bir ölkənin iqtisadi baxımdan uğuru xarici ticarətin nticəsində baş verir.

Xarici ticarət nədir? Sualına cavab verəsi olsaq deyə bilərik ki, əmtəə və xidmətə əsaslanan mübadilə prosesidir. Başqa formada desək, xarici ticarət bir çox ölkələrin satış və alış prosesini həyata keçirənlər arasında mübadilə yaradır. Mübadilə əmək məhsulları əsasında baş verir. Xarici ticarət əlaqələri həm ayrı ölkələrdə, həm də dünya miqyasında həyatımızın tərkib hissəsi kimi önəmli rol oynayır.

Dünyanın qabaqcıl ölkələri arasında özünü göstərən bu ticarət tələb və təklifin nəticəsində meydana çıxır. Belə ki, hər hansı bir ölkədə istehsal olunan bir məhsul tələb olunandan da artıq istehsal olunur. Bu artıqlıq dünya bazarlarına çıxarılır. Bu nəyin vasitəsi ilə olur deyə soruşsaq təbii ki, xarici ticarətin vasitəsilə.

Dünya bazarlarında məhsula yaranan ehtiyac təklif kimi özünü göstərir. Ehtiyac olmayan məhsul istehsal olunsa da onun ehtiyac olan məhsula görə dəyişdirilməsi prosesi də baş verə bilir. Hətta hər hansı bir məhsul istehsalında müvəffəqiyyətli olan bir ölkə məhsul istehsal edir və onu başqa ölkələrə göndərir.

Xarici ticarət əlaqələri bir çox dövlətlər arasında özünü göstərdiyin -dən burada başlıca amil kimi iqtisadi siyasət diqqəti cəlb edir. İqtisadi siyasətin başlıca mexanizmini təşkil edən xarici ticarət iqtisadiyyatın inkişafına təkan verən vasitədir. Xarici ticarət beynəlxalq münasibətlər sistemində dinamik inkişafı təmin edir. Xarici ticarətin strukturlarını regional və qlobal inkişafın mexanizmləri təşkil edir.

Bir sıra dövlətlərdə ticarət münasibətləri daha genişdir. Bunlar dünyanın qabaqcıl ölkələridir. İndiki dövrdə nəhəng dövlətlər ticarət iştirakçıları hesab edilir. Onlar ticarətin dinamik inkişafını təmin edirlər. Xarici ticarət əlaqələri iqtisadiyyat inkişaf etdikcə genişlənib təkmilləşir.

Xarici ticarətdə qloballaşmanın da rolu böyükdür. Belə ki, qloballaşan dünya ticarətin başlıca amilidir. Xarici ticarət iqtisadiyyatda özünü göstərən bir sıra problemləri həll etməyə də imkan yaradır.

Ölkədə baş qaldıran böhran və ya inflyasiyanın qarşısının alınması mühüm amil kimi diqqəti cəlb edir. Bunun üçün xarici ticarətin inkişaf etməsi yetərlidir. Xarici ticarət olmadan böhrandan çıxmaq qeyri-mümkündür. Xarici ticarətin bir sıra cəhətləri mövcuddur ki, bunlar da onun inkişafını təmin edir.

Xarici ticarət qlobal və regional inkişafın başlıca göstəricisidir. Xarici ticarətin bir sıra xüsusiyyətləri mövcuddur. Onlar xarici ticarətin inkişafını şərtləndirir. Bu xüsusiyyətlərə aiddir:

- iqtisadi inkişafın tam təkmilləşməsi;
- pul-əmtəə münasibətlərinin getdikcə inkişaf etməsi;
- dünya iqtisadiyyatının inkişafıı üçün baza amili rolunu oynaması və s.

Xarici ticarətin xüsusiyyətləri ilə yanaşı, onun var olmasını şərtləndirən cəhətlər də vardır. Buraya daxildir:

- hər bir ölkənin özünün istehsal etdiyi məhsulun yetərli olmaması;
- inkişaf etmiş ölkələrin bir yox bir neçə əmtəə istehal etməsi;
- yerli əmtəələrin beynəlxalq sistemdə qiymətinin dəyişməsi.

Yeni dövrdə dünya ölkələrinin bazar mexanizmləri fərqlidir. İqtisadiyyatın inkişafı üçün başlıca olaraq olaraq lazım olan beynəlxalq ticarət gün keçdikcə inkişaf edir. Bu da ölkə üçün bir sıra perspektivlərə yol açır. Yeni dövlətlərin iqtisadiyyatının inkişafı o qədər də sürətlə baş vermir. Xarici iqtisadi əlaqələrdə məhz beynəlxalq ticarətin formalarından, üsullarından istifadə olunur.

Xarici ticarət iki komponentin birləşməsində əmələ gəlir. Belə ki, bunlardan biri idxal, biri isə ixracdır. Xarici ticarət başlıca olaraq ixrac, idxal və əmtəələrdən ibarətdir.

Xarici ticarətin faydası daha çox dünyanın qabaqcıl ölkələri üçün vardır. Çünki bu ölkələr üçün xarici ticarətin anlamı əlavə gəlir götürə bilmək mənbəyi kimidir. İqtisadi cəhətdən zəif inkişafa malik olan ölkələrdə məhsullar yüksək qiymətlə satılsa da, xammalın qiyməti isə yüksək olmur. Nəticədə də böyük miqdarda gəlir götürülür.

Dövlətlər arasında ticarət prosesi nə üçün baş verir? Bu sualın cavabı BƏB-in inkişafına əsasən müəyyən edilir. Hər bir ölkədə iqtisadi resurslar fərqlidir. Onların bölgüsü mexanizmi də təbii ki, fərqlidir. Bölgünün qeyri-bərabər baş verdiyi üçün iqtisadi potensial dəyişir.

Ticarət əlaqələrində iqtisadi resurslar ciddi şəkildə bir-birindən fərqlənir. Hər hansı ölkədə xarici ticarət amili, resursu müxtəlif meyarlara görə qiymətləndirilə bilər. Belə ki, torpağın çox olması və ya işçi qüvvəsinin çox olması xarici ticarət əlaqələrini genişləndirir.

Bir çox ölkələr neft, kapital, məhsul və mineral ehtiyatlar üçün əsas mənbə rolunu oynayırlar. Misal olaraq, Yaponiyada işçi qüvvəsi çoxdur. Onların hər biri çox yaxşı təhsil görmüşdülər. Bu baxımdan da onlar elm ilə bağlı olan məhsulları yüksək keyfiyyətlə istehsal edə bilirlər. Avstraliya nümunəsinə baxaq. Bu ölkənin torpaq əraziləri çox genişdir. Burada buğda, ət və ət məhsulları, yun kimi məhsullar istehsal olunur.

Xarici ticarət əlaqələrinin olmadığını bir anlıq düşünsək görərik ki, bu ölkələrin bəziləri elə məhsullar var ki, onlara sahib deyillər və ola da bilməzdilər. Misal olaraq, İslandiyada kömür, Britaniyada qızıl və alüminium və İsveçdə isə neft yoxdur.

Ölkələrdə iqtisadiyyatın inkişafı əlverişli şəkildə baş verir. İstehsalın inkişafı isə olduqca dinamik bir prosesdir. Onların istehsal etdikləri məhsullar nisbi qiymətlərə malikdir. Daxili tələbin olması nəticəsində qiymət artımı da baş verir.

Xarici ticarət əlaqələri genişləndikcə, inkişaf etdikcə rəqabət prosesi sürətlənir. İstehsalın effektivliyi məhz bunun nəticəsində baş verir. Çünki biri digərinə inkişaf baxımdan təkan verir.

BİM-in başlıca formalarından biri kimi xarici ticarət özünün ilk qığılcımlarını quldarlıq dövründən göstərməyə başlamışdır. Elə bu səbəbdən də BİM-in tarixi olaraq birinci növbədə inkişaf tapmış forması kimi dəyərlən - dirilir. XV-XVIII yüzilliklərdə məhsuldar qüvvələr və onların inkişafı olmamışdır. Lakin XVIII əsrin sonlarından başlayaraq məhsuldar qüvvələr inkişaf etməyə başlamışdır. İri maşınlı sənaye ortaya çıxmış və daxili bazar böyüməyə başlamışdır. Bu da dünya bazarını formalaşdırmışdır. Öz növbəsində ticarət əlaqələri beynəlxalq səviyyədə inkişaf etməyə başlamışdır.

XVIII əsrin II yarısından başlayaraq xarici ticarət əsaslı şəkildə araşdırılmışdır. Bu vaxta kimi olan zamanda başqa-başqa konsepsiyalarda xarici ticarət anlayışı ötəri surətdə çəkilirdi. Xarici ticarət anlayışını ilk dəfə sistemli şəkildə araşdırıb ədəbiyyata daxil edən klassik nəzəriyyənin banisi Adam Smit olmuşdur. Onun araşdırmalarının nəticəsi kimi qiymətləndirilən əsəri "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında traktat" dır (1776). Bu nəzəriyyədən iki əsr yarım keçmişdir. Bu müddətdə beynəlxalq ticarət konsepsiyaları əsaslı şəkildə dəyişikliklərə məruz qalmışdır.

Çağdaş zamanda xarici iqtisadi fəaliyyət analiz edilir. Bu ticarətin qarşısında bir sıra vəzifələr dayanır. Bu vəzifələrin icra edilməsi üsulların düzgün müəyyənləşdirilməsi nəticəsində baş verir. İxrac etmənin potensial imkanları araşdırılan zaman əsas təhlil üsulları qarşıya çıxır.

Müəssisələrdə ixrac potensialı demək olar ki, mürəkkəb bir sistemi təşkil edir. İxrac potensialı aşağıdakı vəzifələri icra edir:

1. Resursların tam olmasını və istifadəsi ilə bağlı səmərəlilikdə olan vəzifəyə aiddir:

- əmək və maliyyə amillərinin təhlil edilməsi;
- resurslardan səmərəli istifadə edilməsi;
- optimallaşdırmanın tətbiq edilməsi;
- resurs amillərinin analiz edilməsi və s.

Xammalın təhlil edilməsi zamanı bir sıra problem və göstəricilər ortaya çıxa bilir. Təchizatla əlaqəli olan məsələlərdə logistik problemlər də özünü

göstərir. Bunlar müəyyən çərçivədə reallaşdırılır. Ənənəvi qaydada olsa aşağıdakılar əsas götürülür:

- istehsal amillərinin bazar formasında təhlilini aparmaq;
- büdcənin məsrəflərini müəyyən etmək;
- resursların keyfiyyətini təhlil etmək;
- göndərilmiş məhsulların həcmini müəyyənləşdirmək.

Xammalın istehsal edilməsi təminetmə bazarını təkmilləşdirir. Bazarda qiymətlərin öyrənilməsi resursun inkişafına təkan verir. əsas resursların olması xarici ticarəti daha da inkişafa sövq edir. Məsrəflər və gəlirlərin balanslaş - dırılması istehsalı daha da yaxşılaşdırır. Ümumiyyətlə, hər hansı bir məhsul istehsalında kənara çıxmalar o məhsulun qiymətini artıra, keyfiyyəti azalda bilər.

2. İxrac olunan məhsulun rəqabətqabiliyyətli olması onun istehsal həcmini müəyyən edir. Bu zaman bir sıra vəzifələr ortaya çıxır. Bunlar aşağıdakılardır:

- İxrac olunan məhsulların çeşidlərinin bol olmasını müəyyən etmək;
- Çeşidlərdə mütəmadi olaraq dəyişikliklərin aparılma qaydasını təyin etmək;
- İxrac olunan məhsulların bol çeşidliliyinə təsir göstərən amilləri təhlil etmək;
- Məhsulun çeşidli olmasına maneə olacaq amilləri müəyyən edib aradan qaldırmaq;
- Məhsulun keyfiyyətliliyini qiymətləndirmək;
- İxrac olunacaq məhsulla xarici məhsulların müqayisəsini aparmaq;
- Rəqaməti yüksəldən amilləri öyrənmək və onları işləyib hazırlamaq.

3. İxrac olunacaq məhsulun satışı ilə əlaqədar olaraq təhlilin aparılması özü ilə birlikdə bir sıra məsələləri ortaya çıxarır. Bunlar aşağıdakılardır:

- İxrac olunacaq məhsulların göndərilməsi ilə əlaqəli olaraq planın müəyyənləşdirilməsi;
- Müqavilələrin tərtib olunması;
- Müqavilənin şərtlərinin və öhdəliklərinin icrasına əməl olunması və s.

Ümumi olaraq satış da bir mexanizm təşkil edir. Bu mexanizmin gücləndirilməsi üçün strategiyaların olması zəruridir. Strategiyanın hazırlanması məsələlərini təşkil edən müddəalar aşağıdakılardan ibarətdir:

- satışın keçirilməsi üçün lazım olan mexanizmin işlənilməsi;
- ən optimal metodun satış prosesində tətbiq edilməsi;
- vasitə olanların seçilməsi və onların işləmə metodlarının müəyyənləşdirilməsi və s.

4. İxrac olunacaq məhsulların istehsalı və satışı ilə bağlı məsrəflərin müəyyən edilməsi ilə bağlı bir sıra vəzifələrin müəyyən edilməsi zəruridir.

Bunlara aiddir:

- Müəssisənin ixrac ilə əlaqədar olan maliyyə nəticələrini öyrənmək;
- Rəqabətqabiliyyətliliyi analiz etmək;
- İxrac potensialının təhlilini aparmaq.

# II FƏSİL. ÖLKƏNİN XARİCİ İQTİSADİ ƏLAQƏLƏR SİSTEMİNİN TƏNZİMLƏNMƏSİ VƏ MÜASİR VƏZİYYƏTİ

## 2.1. Gömrük xidməti və onun xarici iqtisadi əlaqələrin dövlət tənzimlənməsindəki yeri

Ulu öndər Heydər Əlirza oğlu Əliyevin gömrük işi ilə bağlı müstəsna əhəmiyyətə malik fikirləri vardır. Bu fikirlərdən biri belədir: “Gömrük xidməti hər bir dövlətin müstəqilliyinin əsas atributlarından biridir”.

Yuxarıda deyilənlər bu fəslin tədqiqində də öz əksini tapacaqdır. Belə ki, doğrudan da hər bir dövlətin iqtisadi inkişafı, təhlükəsizliyi, əlaqələrinin genişləndirilməsi gömrük üzərində qurulur. Gömrük xidməti və onun təşkil olunmasında gömrük sistemi önəmli yerlərdən birini tutur. Burada sistem deyəndə gömrük orqanlarının cəmi, məcmuu nəzərdə tutulur.

**Şəkil 5: Dövlət Gömrük Komitəsinin strukturuna daxil olan orqanların ümumi görünüşü**




**Mənbə:** http://customs.gov.az/az/komite/gomruk-orqanlari/ (22.04.2019)

Gömrük xdmətini gömrük orqanları yerinə yetirdiklərindən onların üzərinə böyük öhdəlik düşür. Gömrük işində əsas məsələ gömrük xidmətini yüksək keyfiyyətdə yerinə yetirməkdir. Gömrük xidməti bir sıra işləri özündə cəm halında birləşdirir. Bura daxildir:

- İdxalın təşkil olunması;
- İxracın təşkil olunması;
- Rüsumların tutulması və s.

Hər bir ölkənin gömrük xidməti onun gömrük siyasəti ilə müəyyən olunur. Gömrük siyasəti bir sıra vasitələrlə reallaşdırılır. Bu vasitələr aşağıda sıralanmışdır:

- əmtəə məhsullarının sərhəddən keçirilməsi qaydaları;
- gömrük nəzarətinin həyata keçirilməsi üsulları və s.

Gömrük sərhədindən keçirilən mallar ölkənin təhlükəsizliyinə əməl olunaraq həyata keçirilir. Bu gömrük normaları adlanır.

ÜTT-yə üzv olmaq xarici iqtisadi fəaliyyəti daha da geniş bir hala gətirmişdir. Dünyanın qabaqcıl ölkələrində gömrük xidməti müəyyən yanaşma tələb edir. Belə ki, gömrük xidməti məqsədli olaraq aparılır. Burada əsas məqsəd idxal-ixrac proseslərinin çox yaxşı təşkil olunmasındadır.

Yuxarıda deyilənlərə əsaslansaq deyə bilərik ki, respublikamızda gömrük sisteminin təkmilləşdirilməsi məqsədilə proqram qəbul edilməlidir. Ölkəmizin xüsusiyyətləri MDB ölkələri sırasında ilk beşlikdədir. Belə ki, bu beşliyə Rusiya, Qazaxıstan, Azərbaycan, Belarus, Qırğızıstan aiddir. Bunu aşağıdakı diaqramda aydın şəkildə görmək olar.

Respublikamızda gömrük sistemi nailiyyətə zəmanət verəcək formada inkişaf edir. Gömrük sisteminin inkişaf etməsi müəyyən metod və prinsiplərə əsaslanır. Bu inkişafın müəyyən dinamikası vardır. Aşağıdakı diaqramda bunu görmək olar (Qrafik 1 və 2):

Xarici ticarət dövriyyəsinin inkişaf dinamikasını göstərən yuxarıdakı diaqrama görə idxal 2018-ci il üzrə 90,128.0 mln. ABŞ dolları; ixrac 1,1920.20 mln. ABŞ dolları; dövriyyə isə 1,0872.01 mln. ABŞ dolları təşkil etmişdir.

Gömrük xidmətində səmərəlilik gündın-günə artır. Belə ki, səmərəliliyi müəyyən edən amillər arasında taktiki və strateji tədbirlərdir. Bu tədbirlərdə bəzi çatışmazlıq və nöqsanlar mövcuddur. Bunların işlənilib aradan qaldırılması zəruridir.

Taktiki tədbirlərə aşağıdakılar aiddir:

- gömrük prosedurlarının müəyyən dərəcədə sadələşdirilməsi;
- idxal-ixrac prosesində məhsulların yoxlanılması və nəzarətinin daha optimal üsullarla həyata keçirilməsi;
- daşınma və anbarlaşdırma prosesinin daha da mexanikiləşdirilməsi;
- saxlanmada zəruri olmayan sənədləşdirmənin ləğv edilməsi;
- yersiz rəsmiləşdirmənin aradan qaldırılması;
- gömrük informasiyalarının avtomatlaşdırılması və s.

Gömrük xidmətinin inkişaf etdirilməsi üçün Gömrük Məcəlləsi qəbul edilmişdir. Burada bir çox məsələlər öz əksini tapmışdır. Məcəllənin II maddəsinin III bəndi gömrük xidməti ilə bağlı məsələləri əhatə edir. Burada beynəlxalq normalara uyğunlaşma yönündə inkişaf da qeyd edilmişdir.

Gömrük Məcəlləsinin IV maddəsinə görə ölkəmizin beynəlxalq iqtisadi əlaqənin inkişafı və daha da təkmilləşdirilməsi üçün başqa dövlətlər ilə gömrük ittifaqları arasında hüquqi müstəvidə sazişlər imzalanır.

Dövlətimiz müstəqillik əldə etdikdən sonra xarici iqtisadi əlaqələr sferasında yetərincə uğur qazanmışdır. Belə ki, uğur qazanmaqda əsas öhdəlik kimi beynəlxalq əmək bölgüsünün üstünlükləri götürülür. Gömrük xidməti bərabərhüquqlu əsaslarla həyata keçirilir. İqtisadiyyatımızın quruluş və inkişaf baxımından təkmilləşib tənzimlənməsi əsas məsələlərdən biridir.

Bildirmək lazımdır ki, idxal və ixrac əməliyyatları iqtisadi siyasətin və gömrük siyasətinin əsasını təşkil edir. Bunların biri digərini tamamlayır. Bu da xarici iqtisadi əlaqələri tənzimləyir. İqtisadi baxımdan xarici əlaqələr təcrübəsinə nəzər yetirsək görərik ki, onlar 5 qrupda fərqləndirilib birləşdirilir:

1.İqtisadi baxımdan tənzimlənmədə gömrük rüsumları önəmli yer tutur. Burada vergi ilə bağlı məsələlərə də toxunulmuşdur.

2.İnzibati tənzimləmə vasitələri ixrac və idxalda lisenziyalaşdırmanı təmin edir. Burada ixracla bağlı məsələlər də məhdudlaşdırılır.

3.Texniki vasitələr standartlara uyğun olaraq həyata keçirilir. Burada təhlükəsizlik normaları nəzərə alınır.

4.Milli istehsala və ixraca uyğun tədbirlərin görülməsi əsas məsələ olaraq qalır.

5.Valyuta-maliyyə tədbirləri.

Xarici əlaqələrin müstəqilləşdirilməsi iqtisadi islahatlar çərçivəsində reallaşan tədbirlər üçün imkan yaradır. Respublikada gömrük işində xarici əlaqələrin tənzimlənməsi məqsədilə bir sıra işlər görülür. Gömrüyün mürəkkəb quruluşu daha sadə formada həyata keçirilir.

Gömrük infrastrukturunun qurulması və onun təkmilləşdirilməsi işində əsas məsələlərdən biri təminat baxımından mərhələlərin düzgün müəyyən edilməsidir. Gömrük işi ilə əlaqədar olaraq amillər üç qrupda birləşdirilir:

- Birinci qrup: ictimai və siyasi amillər

Ölkəmizin müstəqil olmasından sonra gömrük xidməti formalaşmağa başlamışdır. Bu zaman ölkədə olan ağır siyasi mühit hər bir şeyə öz təsirini göstərmişdir. Ağır siyasi mühit dedikdə, ermənilərin torpağımızı işğal etməsi nəzərdə tutulur. Müxtəlif qruplaşmaların olduğu bir dövrdə əsas sahələrdə problem özünü göstərmişdi.

Gömrük sisteminin və xidmətinin möhkəmləndirilməsi onun inkişafı üçün əsas meyar hesab edilir. Böyük vaxt dilimində bu qruplaşmalar öz şəxsi maraqları naminə regionda geosiyasi planlaşmalar aparmışdılar. Xarici dövlətlərlə aparılan siyasət regional dünyada böyük problemlər və uğurlar yarada bilir. Dövlətimizdə bir sıra işlər görülür. Əvvəlki dövrdə sərhədlərin açılması da gömrük işinin inkişafına gəətirib çıxartmışdır.

- İkinci qrup: iqtisadi və hüquqi amillər

Azərbaycan öz müstəqilliyini bərpa edəndən sonra keçid dövrü yaşamağa başlamışdır. Bu zaman təsərrüfat əlaqələri zəif idi. Demək olar ki, bir çox ölkələrdə iqtisadiyyat süquta uğramışdır. İqtisadiyyatı dirçəltmək üçün görülən işlərdən biri qanunvericilik bazasının yenidən qəbul edilməsi və təkmilləşdirilməsi olmuşdur. Bu dövrdə gömrük orqanlarının fəaliyyəti demək olar ki, sıfır vəziyyətində idi.

- Üçüncü qurup: professional – etik amillər

DSK-nın yaranması zamanı müvafiq təcrübəli və ixtisasçı kadrların sayı olduqca az idi. Hazırki dövrdə şükürlər olsun ki, bu göstərici birə beş artmışdır. Yüksək göstəricilərə malik olan işçilər işə götürülmüşdür. Gömrükçülər sırasına asan yoldan qazanc əldə etmək məqsədi güdən şəxslər də daxil olmaq istəmişdilər. Lakin bu mümkün olmamışdır. Çünki bir gömrükçünün seçilməsi o qədər də asan məsələ deyildir.

Qanunvericiliklə müəyyən edilmiş qaydada gömrük işində olan zəiflik özünü statistik rəqəmlərdə göstərmişdir. Belə ki, 1998-ci illərdə gömrük işində uğur 20%, 2005-ci illərdə 32%, 2010-2018-ci illərdə isə 50-60%-dir.

Ümummilli liderimiz, dahi siyasətçimiz, dühamız H.Ə.Əliyev vaxtilə gömrük işində yaranmış situativ vəziyyəti belə qiymətləndirmişdir ki, gömrük işçiləri öz vəzifələrindən sui-istifadə edirlər. Bütün bunlarla kəskin olaraq mübarizə aparılmalıdır. Hesab edirəm ki, gömrük orqanlarının hamısında qanuni, hüquqi işlər görülməlidir, heç bir qanunsuzluq halına yol vermək olmaz. Hər kəs lazımi formada çalışıb xidmət göstərsə ölkə üzrə gəlirimiz daha da artıq ola bilər.

Gömrük işinə nəzarət XX əsrdən başlayaraq getdikcə güclənmişdir. Sərhədimizin gömrük postlarında nəzarət daha da möhkəmləndirilir. Belə ki, burada baş verən qanunsuz hərəkətlər, qaçaqmalçılıq, xuliqanlıq kimi hadisələrin qarşısını alınır.

XX əsrin əvvəllərində çətinliklər nəzərə alınmışdır. Dövlətimiz gömrük sahəsində xidmətlərini daha da genişləndirmişdir. Bu genişlik onun ADGK tərəfindən strateji proqramın işlənib hazırlanmasında da özünü göstərmişdir.

Proqramda keçirilən məhsulların gəlmə üsulları, vasitələri, rüsumları, prosedurları, rəsmi qaydaları öz əksini tapmışdır.

Yükü göndərən və gətirən haqqında məlumatların toplanması gömrük xidmətində önəmli məsələlərdəndir. Qanunsuz dövriyyənin qarşısının alınması və tranzitinə yol verilməməsi məsələləri də həlli gözlənən problem kimi qarşıya qoyulur. Ümumiyyətlə, gömrük xidmətinin qanunvericiklə bağlı maddələrinin pozulması ciddi cəzayə səbəb ola bilər.

Gömrük xidmətində bir neçə amillər vardır ki, onlar onun rolunu və önəmini artırır. Bu amillərə aşağıdakılar aid edilir:

- Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi prosesində funksiyalar, səlahiyyətlər və məsuliyyətlər ciddi şəkildə çətinləşməsi;
- Gömrüyün rəsmiləşdirilməsindəki problemlər;
- İşlərin texnologiyadan asılılığının baş verməsi;
- Gömrük orqanlarının hüquq-mühafizə orqanı olması və onun hüquqi vəzifələr daşıması ölkə iqtisadiyyatının təhlükəsizliyini təmin etməsi;
- Gömrük təşkilatlarının kadr heyətinin yaxşı mütəxəssislərdən seçilib təşkil olunması və öz bilik və bacarıqlarını daim təkmilləşdirmələri.

Ölkənin sosial baxımdan inkişafdakı geriliyinin qarşısının alınması önəmli öhdəliklərdəndir. Gömrük işində beynəlxalq əməkdaşlıq iqtisadi baxımdan inkişafı sürətləndirir və genişləndirir. Gömrük orqanlarının infrastrukturunun yüksək səviyyəyə qaldırılması başlıca məsələdir.

Bildirmək lazımdır ki, gömrük xidmətində infrastruktur təkmilləşdiril - məlidir. Gömrük orqanlarının atributu gömrük xidmətini daha da müəyyən edən amil kimi çıxış edir.

Respublikamızın gömrük xidməti xarici iqtisadi əlaqələri tənzimləyir. Gömrük siyasətinin reallaşdırılmasında vacib məsələ onun bir siyasi institut olmasıdır. Ölkə iqtisadiyyatının inkişafında gömrük-tarif tənzimlənməsi iqtisadiyyatın idarə olunmasında önəmli məsələdir. Buna görə də gömrük tarifləri çox şaxəyə malik olan funksiyalardan ibarətdir. Gömrük-tarif tənzimlənməsinin əsas funksiyası daxili bazarı mühafizə etməsidir. Baş

verəcək iqtisadi təhlükəni öncədən müəyyən edə bilir. Valyuta ehtiyatları məhsul istehsalını daha da artırır. Bu da xarici iqtisadi əlaqələr sistemində tarif tənzimlənməsi və rüsumlarını müəyyən edir.

Xarici əlaqələrin iqtisadi sistemdə əsasını tarif tənzimləmə təşkil edir. Tarif tənzimləməyə idxal olunan məhsulun gömrük tarifi aiddir. Bu iqtisadiyyatın bütün sahələrini qoruya bilir və fəal xarici ticarət siyasəti yürütmək üçün imkan yaradır.

İdxal ixracın formalaşma prosesidir. İdxal strukturu istehlakın istehsalla əlaqəsini müəyyən edir. Burada əsas məsələ daxili istehsala olan tələbatın ödənilməsidir. Əlbəttə ki, bunun istehlak xüsusiyyətinə malik olması valyutanın azalmasına, iqtisadi resursların zəifləməsinə səbəb olur.

İdxal və ixracda konseptual əsasları gömrük siyasətinin tarif tənzimlən -məsi təşkil edir. Burada gömrük orqanlarının mexanizmləri, vergi və rüsumların balansı əsas götürülür. Gömrük tariflərinin balanslaşdırılması iqtisadiyyatın balanslı olaraq inkişafını şərtləndirir.

Birbaşa olaraq rüsumlar və ödəmələr ölkədəki qiymət siyasətini müəyyən edir. Xarici investorlar arasında tənzimlənməni təmin edir. Hər bir ölkənin inkişafında elə dövrlər vardır ki, onlar inkişaf edib yeni mərhələyə qədəm qoyurlar. Bu iqtisadi siyasətlə birbaşa olaraq bağlıdır.

Gömrük xidmətinin xarici əlaqələri tənzimləmədə olan rolu nəticəsində respublikamızda tarif tənzimləmələrinin formalaşmasında XX əsrin 90-cı illərində vahid formada olan tarif sistemi yaranmışdır. 2001-ci il 16 aprel tarixində isə diferensial formalı tarif sistemi meydana çıxdı.

Yuxarıda dediyimiz kimi, XX əsrin 90-cı illərində vahid formada olan tarif sistemi yaradılmışdır. Bu sistemdə qarşıda duran əsas məsələ gömrük rüsumlarından iqtisadi element kimi istifadə edilməsi və gəlirləri tənzimləmək əsas xüsusiyyətlərdəndir.

Bilirik ki, XX əsrin 90-cı illərində respublikaya idxal olunan xarici məhsulları vahid unifikasiya əsasında 20%-lik gömrük rüsumu tətbiq olunmuşdur. Respublikamızda gömrük idxal rüsumları ilə yanaşı, gömrük ixrac rüsumları

da mövcud olmuşdur. Özəlləşdirmə nəticəsində rəqabət daim özünü göstər - mişdir. Bu dövrdə iki cür proqram qəbul edilmişdir. Olduqca aşağı faizlə kreditlərin verilməsi gömrük işinin inkişafına xidmət etmişdir.

Gömrük rüsumu ilə yanaşı, mallara ƏDV qoyulması təbii bir haldır. Onu da qeyd etməliyik ki, ölkədə istehsal olunan məhsula qanunvericiliklə müəyyən olunduğu kimi ƏDV hesablanırsa niyə də ƏDV hesablanmasın. Bu zaman məhsula çəkilən xərc və xidmətlər nəzərə alınır.

Bildirək ki, XX əsrin I yarısında bütün mallara gömrük rüsumu sıfır dərəcəsində olmuşdur. Tarif və qeyri-tarif maneələri ləğv olunmuşdu. Əsas məqsəd valyuta ehtiyatlarının normal həddə malik olmasını təmin etmək idi. Bunun üçün ixracın qarşısında dayanan maneələri aradan qaldırmaq idi. Bu maneə aradan qaldırıldıqdan sonra ixrac inkişaf etməyə başladı. Ərzaq və qeyri-ərzaq məhsulları idxalın həcmini artırırdı.

Ölkədə gömrük siyasətində bir başlıca məqsəd var ki, o da ixracdan əldə olunan məbləğ hesabına idxalın maliyələşdirilməsidir. Bununla da ölkədə maliyyə təminatı artır. Artıq 2000-ci ilin sonunda ölkədə valyuta ehtiyatları 673 mln. ABŞ dolları təşkil etmişdir. İndiki dövrdə bu göstərici 1,1023.4 mln. ABŞ dolları təşkil edir.

Gömrük xidmətinin təkmilləşdirilməsi hesabına indiki dövrdə qızıl ehtiyatları artmışdır. Məhz bunun da nəticəsində ölkədə valyuta ehtiyatları da artmışdır. Gömrük orqanları ölkədə valyuta nəzarətini də həyata keçirirlər.

Qeyd etmək lazımdır ki, dövlət valyuta nəzarəti tənzim olunmaq baxımından gömrük tarif sistemində elementin vacib komponentidir. Valyuta nəzarətini daim təkmilləşdirmək lazımdır. Bu da təbii ki, xüsusi qabiliyyət tələb edir.

Gömrük tarif tənzimlənməsində bir sıra mexanizmlər vardır. Bu mexa - nizmlərin önəmi onun düzgün planlaşdırılıb tətbiq edilməsindədir. Buna görə də gömrük tarifləri xüsusi olaraq gömrük orqanları tərəfindən tənzimlənib iqtisadi inkişafa təkan verirlər.

## 2.2. Xarici iqtisadi əlaqələrin gömrük tarif tənzimlənməsinin müasir vəziyyəti

Gömrük tarifi dedikdə gömrük xidmətinin əsas komponenti başa düşülü. İndiki dövrdə xarici iqtisadi əlaqələrdə gömrük və gömrük tarifi önəmli yer tutuduğundan gömrük tarifinin tənzimlənməsi də olduqca önəmlidir.

Gömrük tarifinin mahiyyətinə varsaq görərik ki, xarici ticarətdə tarif tənzimləmələri üstünlük təşkil edir. İqtisadi islahatların tərkibi kimi özündə bir neçə xüsusi əlamətləri birləşdirir. Qloballaşan dünyada inkişaf edən ölkələr tarif tənzimləmələrinə xüsusi mexanizm kimi baxırlar. Gömrük xidməti özü çeviklik tələb edən sahədir. Bu sahənin fəal şəkildə inkişafına çalışmaq lazımdır.

Səmərəli formada gömrük tarif tənzimlənməsi respublikamızın indiki dövrdə iqtisadi baxımdan inkişafını və pul-əmtəə ehtiyatlarının artmasını tələb edir.

Bəs gömrük tarifi nədir? Bu suala cavab vermək əslində o qədər də asan deyildir. Çünki onu müəyyən edən bir sıra xüsusiyətlər, məqsədlər və amillər mövcuddur. Gömrük tarifi xarici ticarətin dövlət tərəfindən tənzimlən -məsində qiymətin əmələ gəlməsində başlıca vasitədir, üsuldur.

Yuxarıda deyilənlər əsasında deyə bilərik ki, gömrük tarifi proteksionist, həm də fiskal funksiyalar daşıya bilir. Birinci funksiya milli istehsalçıların maraqlarının qorunmasıdır. İkinci funksiya isə idxal olunan mallardan gömrük rüsumunun tutulması prosesidir. Daxili bazarda satış zamanı dəyər artır. Milli sənaye və kənd təsərrüfatında istehsal edilən zaman analoji mallar rəqabətin artmasına şərait yaradır.

Gömrük tarif tənzimləmədə fiskal funksiya da vardır. Bu funksiya ilə gömrük rüsumları dövlətin büdcəsinin vəsaitlər hesabına tutulur. Belə ki, dövlət vəsait yığılması ilə rüsumları tənzimləyə bilir. Bunlardan başqa, gömrük tarifi daxili qiymətlərə təsir edir. Müəyyən dərəcədə milli istehsalda ixrac o qədər də rol oynamır. İdxal mallar bahalaşmaya gətirib çıxarır. Çünki məhsulun qiyməti iki və ya üç dəfə qalxır. Bunun da nəticəsində investisiya, valyuta

ehtiyatları, ixrac qiymətləri aşağı enir. Ölkədə fövqəladə hal kimi maddi itki özünü göstərir. Lakin əksər vaxtlarda idxal məhsullarından xarici bazarda ölkənin rəqabətini artırmaq üçün də istifadə olunur.

Gömrük tarifində xarici ticarət gömrük tənzimlənməsi vasitəsi kimi iqtisadi və siyasi endirimlərdən yararlanmaq üçün tətbiq olunur. Malların idxalına tətbiq olunan rüsumlar tarif məhdudiyətlərinin zəifləməsi nəticəsində olur. Razılaşmaların aparılması milli istehsal məhsullarının bazara çıxarılması keyfiyyəti əsasında aparılır.

Gömrük tarifi nadir hallarda ixrac məhsullarının istehsalına görə aşağı və ya sıfır dərəcəli idxal rüsumu tətbiq oluna bilər. Bu zaman ixrac mütləq şəkildə stimulaşdırılmalıdır. Gmrük tarifində əlaqələr iqtisadi və sosial baxımdan genişlənir. Bu da rüsum stavkalarını müəyyən edir. Bunun iqtisadi inkişafa təsiri böyükdür. Xarici ticarət münasibətlərində ölkələr heç vaxt keçmiş təcrübələrindən istifadə etmirlər. Onlar yalnız gələcəyə baxaraq dünyanın inkişaf etmiş ölkələrin təcrübələrindən yararlanırlar.

Ölknin təsərrüfat sisteminin inkişafına nail olmaq üçün müxtəlif siyasi islahatlar aparılır. Bunun da nəticəsi olaraq gömrük sistemi işində tarif tənzimləmələri ilə bağlı məsələlər ön plana çəkilir. Ölkənin təsərüfatının inkişafı ilə gömrük rüsumları stavkaları asılılıq təşkil edirlər.

Dünyanın qabaqcıl ölkələrinin siyasətinə baxsaq görərik ki, gömrük ilə əlaqəli olan məsələlər rəqabətin meyvəsi kimi baxılır. Daxili bazarda rüsumların yüksək olması ixracla bağlı tədbirlərin görülməsini şərtləndirir.

Hər bir ölkə bildiyimiz kimi, büdcəni ya vergilər, ya da gömrük rüsumları hesabına doldurur. Lakin bu asılılıq düzgün hal kimi qiymətləndirilə bilməz. Bu asılılığın aradan qaldırılması üçün ölkələr iqtisadiyyatı hərtərəfli inkişaf etdirməlidirlər. Valyuta sistemi və qeyri-neft sektorunun inkişafının, investisiyaların qoyulmasının mütmadi olaraq təmin edilməsi məsələsi bu asılılığı aradan qaldırır. Bu asılılığın aradan qaldırılması ilə ölkədə iqtisadi artım 30-55% arasında ola bilir. İEOÖ-də bəzi məhsul çeşidləri var ki, onlara görə rüsumlar 50 və bəzən isə 100%-dən çox ola bilir.

Bildirək ki, xarici ticarətin inkişaf dinamikası göstərir ki, beynəlxalq mal mübadiləsi getdikcə artır. Bu da rüsumların azaldılmasına və ya onlardan imtinaya gətirib çıxarır (Sadiqov K.F., Qafarov K.S., ... 2007).

Respublikamızdakı gömrük tarifi ölkənin gömrük səthədindən keçirilən məhsullara tətbiq olunan rüsum dərəcələrinin cəmidir. Gömrük tarifi və onun formalaşıb təşəkkül tapması məsələləri ilk dəfə 1995-ci ilin 20 iyun tarixində respublikamızın "Gömrük tarifi haqqında" qanunu ilə müəyyən olunur. Qanundakı gömrük tarifinin məqsədləri aşağıdakılardan ibarətdir:

- idxalın məhsul quruluşunu təkmilləşdirmək;
- valyuta gəlirlərinin və ya məsrəflərinin səmərəli nisbətini müəyyən etmək;
- valyuta sərvətlərinin gətirilməsi ilə onlara nəzarət etmək;
- məhsulların istehsal və istehlakına imkan vermək;
- xarici ticarətdə rəqabəti qorumaq;
- dünya təsərrüfatına inteqrasiyanı təmin etmək.

Gömrük işinin əsasını rüsum dərəcələri təşkil edir. Çünki biri digəri ilə müəyyən olunur. "Gömrük tarifi haqqında" qanunun III maddəsinin III bəndində gömrük rüsumları qeyd edilmişdir. İxrac gömrük rüsumları dərəcələr üzrə müəyyən olunur. Qeyri - tarif tədbirləri Nazirlər kabineti görür. Respublika - mızın gömrük rüsumlarında ixraca görə rüsum dərəcələrinin son həddini isə Milli Məclis qəbul edir.

**Cədvəl 1: Gömrük rüsumları**

| Malın gömrük dəyəri (AZN) | Rüsum (AZN) |
|---|---|
| 1000 manatadək | 15 |
| 1000 – 10 000 | 60 |
| 10 000 – 50 000 | 120 |
| 50 000 – 100 000 | 200 |
| 100 000 – 500 000 | 300 |
| 500 000 – 1 000 000 | 600 |
| 1 000 000 və yuxarı | 1000 |

**Mənbə:** Dövlət Gömrük Komitəsinin statistik məlumatları əsasında "müəllif hesablamaları" (23.02.2019)

Gömrük rüsumlarını yuxarıda verilmiş cədvəldə görmək olar. Yuxarıda qeyd edilən ümumilikdə olan rüsumlardan əlavə həm də məhsulların idxal və ixracını tənzimləmək lazım gəlir. Bu göstəricilər məhsulların tənzimlənməsi üçün tətbiq olunur. Lakin mövsümi olaraq rüsumlar tətbiq olunmur. Qanuvericiliyə əsasən mövsümi rüsumların qüvvədə olma müddəti 6 aydan çox ola bilməz.

Ölkədə iqtisadi maraqların qorunması məqsədilə idxal edilən mallar gömrük rüsumlarının növlərinə görə antidempinq, kompensasiya rüsumları tətbiq oluna bilər. Bunun bir sıra halları mövcuddur. Bunlar aşağıdakılardır:

1.Əgər respublikamıza gələn xarici mallar oxşar və ya rəqabətə zərər vuracaq miqdarda, qoyulan kriteriyalar xaricindədirsə bu zaman xüsusi rüsumlar tətbiq olunur.

2.Əgər xarici məhsullar gələn vaxt normaldan qiymətdən qat-qat aşağı qəbul edilərsə bu zaman milli istehsalçılara zərər vurula bilər.

Respublikamızın "Gömrük tarifi ilə bağlı qanun" unun 24-32-ci maddələrində məhsulun mənşə ölkəsi müəyyən edilməsi ilə bağlıdır. Gömrük əməliyyatları və onların sadələşdirilməsi beynəlxalq miqysada da tədqiq olunur (Şəkərəliyev A.Ş., Şəkərəliyeva Z.A.,2005).

Gömrüklə bağlı qanunvericilikdə "mənşə ölkəsi" anlayışı geniş mənaya malikdir. Mənşə ölkəsi dedikdə istehsal olunan yeri, ölkəsi nəzərdə tutulur. Bu anlayış ilk dəfə XXI əsrin başlanğıcında MDB hökumət başçıları tərəfindən qərarlar təyin edilmişdir. Məhsulun mənşə ölkəsindən III ölkəyə aparılması zamanı isə mənşəyi ayırd edilə bilmir.

Gömrük tarifləri tarif tənzimlənməsi tədbirləri ilə qaydaya salınır. Məhsulların gömrük sərhədindən keçirildiyi vaxt vergi qoyulur. Bu bazanın müəyyən edilməsinə də təsir göstərir. Burada dövlət və kommersiya məqsədi güdən dairələr əsas vasitədirlər.

Xarici ölkələrdə gömrük tarif tənzimləmələri müxtəlif göstəricilərə malikdir. Belə ki, müxtəlif xarici ölkələrdə tarif tənzimləmələri bir sıra sistemlə aparılır. Bunlara aiddir:

- Gömrük daxilolmaları;
- Gömrük mexanizmləri və s.

**Şəkil 6: Gömrük tarif tənzimlənməsi (xarici ölkələrdə) (faizlə) (2018-ci il üzrə)**




**Mənbə:** A.Ş. Şəkərəliyev, C.Q. Nuriyev, A.Ə. Əliyev "Gömrük işinin təşkili və idarə edilməsi" mənbəyi əsasında "Müəllif tərəfindən tərtib edilmişdir".

Yuxarıdakı diaqramdan görünür ki, gömrük tarif tənzimlənmələri müxtəlif ölkələrdə müxtəlif formadadır.Gömrük tarif tənzimlənməsi iqtisadi təhlükəsizliyin təmin edilməsində önəmli faktordur. İdxal ilə bağlı məsələlər gömrük tarifinin ayrı-ayrı məsələlərini müdafiə edir. Gömrük tarifində idxaldan tutulan tarifdə xarici ticarət üzrə malın qiymətinin formalaşması bir sistem şəklində təşkil olunur.

Beynəlxalq ticarət təcrübəsinə nəzər yetirsək görərik ki, gömrük dəyəri müxtəlif metodikalara əsaslanır. Milli metodikada bu qeyri-tarif məhdudiyyətləri kim qəbul olunur.

Gömrük qiyməti gömrük ödənişləri üçün baza kimi qəbul olunmalıdır? Malın istehsalçıdan istehlakçıya yönəlməsi müxtəlif istiqamət -lərdə qiymətin tərkib hissələri birləşdirilir.

Məhsullar sərhəddən keçiriləndə müəyyən ödənişlər hesablanır. Bu ödənişlər satıcıdan alıcıya qədərki olan mərhələdə formalaşır. Bu mərhələ məsrəf və gəlirləri özündə toplayır ki, buna da gömrük dəyəri kimi baxılır.

Ümumi şəkildə desək, gömrük dəyəri malın o dəyəri hesab olunur ki, burada vergi tutulması ilə bağlı məqsədlər önə çıxır. Belə ki, advalor gömrük ödənişlərinə rüsum, aksiz, ƏDV, gömrük rəsmiləşdiilməsi ilə bağlı yığımlar aid edilir.

Aşağıdakı cədvəldə advalor gömrük ödənişlərinin aylar üzrə göstəriciləri qeyd olunmuşdur.

**Cədvəl 2: 2018-cı ilin advalor gömrük ödənişləri (min AZN)**

| AYLAR | Gömrük rüsumu üzrə | ƏDV üzrə | Aksizlər üzrə | Yol vergisi üzrə |
|---|---|---|---|---|
| **Yanvar** | 60340.5 | 167719.3 | 6941.2 | 2929.2 |
| **Fevral** | 59878.0 | 161312.2 | 6222.0 | 2677.2 |
| **Mart** | 72280.1 | 195523.3 | 15239.1 | 2122.0 |
| **Aprel** | 71818 | 223124.3 | 140321.1 | 3011.1 |
| **May** | 78392.0 | 21450.4 | 16666 | 2988.2 |
| **İyun** | 71233.2 | 212231.2 | 1726.1 | 3021.3 |
| **İyul** | 76731.2 | 223344.5 | 19229.2 | 2925.0 |
| **Avqust** | 86523.3 | 230251.5 | 20132.2 | 3733.0 |
| **Sentyabr** | 78340.0 | 212234.7 | 19023.1 | 3222.1 |
| **Oktyabr** | 97232.1 | 283335.6 | 17232.2 | 4534.2 |
| **Noyabr** | 73719.2 | 193327.2 | 18292.0 | 4621.1 |
| **Dekabr** | - | - | - | - |

**Mənbə:** http://www.customs.gov.az (22.11.2018)

Yuxarıdakı cədvəldə aylar üzrə advalor gömrük ödənişləri qeyd olunmuşdur. 2018-ci il göstəriciləri 2017-ci ilə nisbətən 2% artmışdır.

### 2.3. Azərbaycanın xarici iqtisadi əlaqələrinin inkişaf etdirilməsi üçün əsas amillər

Hər bir ölkənin dünyaya inteqrasiya etməsi artdıqca xarici iqtisadi fəaliyyət də inkişaf edir. Bu fəaliyyətin önəmli amili dünya təsərrüfatıdır. Dünya təsərrüfatına qoşulmaq xarici əlaqələr nəticəsində baş verir. Dünya təsərrüfatı ölkələrin iqtisadi inkişafına yönəlmişdir.

Xarici bazarların dünya iqtisadiyyatına təsir göstərməsi iqtisadi qanunlara əsaslanır. Sahibkarlığın inkişafı ilə əlaqəli olaraq dünya iqtisadiyyatı müxtəlif istiqamətlərdə inkişaf edir. Xarici əlaqələrin əsasında ticarət təşkilatları ilə olan əlaqələr əsas götürülür.

Xarici iqtisadi əlaqələr məhsul istehsalı və xidmətlərin göstərilməsi sahəsində dünya iqtisadiyyatının təkmiləşdirilməsini əsas götürür. Xarici iqtisadi əlaqələrin dünya təsərrüfat sistemində forma və üsulları onun bazasını təşkil edir. Xarici əlaqələrin inkişafına zəmin yaradan amillər aşağıda sıralanmışdır:

- Müxtəlif ölkələrdə iqtisadi inkişaf qeyri-bərabərlik;
- Xammal və insan kapitalı arasında fərqlər;
- Elmi-texniki inkişaf;
- Siyasi münasibətlərin xüsusiyyətləri;
- Təbii şərait və iqlim məsələləri.

Xarici əlaqələr amillərin ümumi, spesifik və milli bölgüləri vardır. Xarici əlaqələr ümumi amilləri beynəlxalq miqyasda öyrənir. Burada elmilik, sistemlilik, ardıcıllıq özünü göstərir (Sadiqov K.F., Qafarov K.S., ..., 2007:s.38).

Xarici iqtisadi əlaqələrin başlıca amillərindən birini təşkil edən amilə elmilik amili daxildir. Xarici əlaqələrin sistemliiyi qarşılıqlı şəkildə baş verir. Beynəlxalq əməliyyatda tərəflər arasında mənfəət olur. Onlar mənfəətin əldə olunması üçün çalışırlar.

Xarici iqtisadi əlaqələr daim idarə edilir. Onların idarə olunması spesifik amillərin nəticəsində baş verir. Xarici əlaqələr beynəlxalq aktlarda öz əksini tapmışdır. Bu aktlarda göstərilən hər bir məsələlər məcburi şəkildə qəbul edilməlidir.

Xarici iqtisadi əlaqələrin əsas subyektidir:

- Hökumət;
- Beynəlxalq təşkilatlar;
- Milli firmalar;
- Transmilli şirkət və banklar;
- Fiziki şəxslər.

10 milyonluq əhaliyə sahib olan respublikamız təbii ehtiyatlara, insan kapitalına malikdir. Onun inkişafının reallaşması üçün kadr potensialı mümkündür.

Son dövrlərdə xarici əlaqələr coğrafi cəhətdən getdikcə genişlənir. 1992-93-cü illərdə əzaq və başqa istehlak malları idxal olunmuşdursa, 1996-cı ildən başlayaraq texnologiya ilə bağlı məhsullar idxalda üstünlük təşkil etməyə başlamışdır. Təbii ki, bu da texnologiyanın fasiləsiz inkişafı ilə əlaqədar olmuşdur. 2000-ci ildən başlayaraq isə 25% təşkil etmişdir.

Respublikamızın əsas məhsulları nef, pambıq və kimya məhsullarıdır. İlk yeri neft və neft-kimya sənayesi tutur. Xəzər dənizinin karbohidrogen ilə zəngin olması onun neft hasilatını yüksəldir. Onun dünya bazarına çıxarılması ilə ixraca tələb artır. Bunun da çəkisi 85% təşkil edir.

Xarici əlaqələrin inkişafı üçün hər bir ölkə dayanmadan çalışır. Siyasət yürüdən zaman başlıca olaraq priritetlər və perspektivlər nəzərə alınır. Sosial və iqtisadi inkişaf istiqaməti iqtisadiyyatın inkişaf tempini artırır.

Dünya birliyinə qoşulmaq sürətli inteqrasiya amili kimi qiymətləndirilir. Bu gün ölkəmiz beynəlxalq aləmdə tərəfdaşdır və əmədaşlıqları uzun müddətlidir. Belə bir dövrdə ölkənin etimadı yüksəlir. Bu yüksəlişin əsas göstəricisi Ümumdünya Ticarət Təşkilatına üzv olmasıdır.

Ölkəmizdə aparılan islahatlar genişdir, çox şaxəlidir. Sosial, siyasi, iqtisadi və s. islahatlar içərisində iqtisadi islahatlar böyük yer tutur. Bu iqtisadi islahatlar əsasən qeyri-neft sektorunda aparılır. İnvestisiyaların qoyulması da məhsulların həcmini və çeşidliliyini artırır.

Ölkənin beynəlxalq münasibətləri genişlənməsi nəticəsində 20 sentyabr 1994-cü il tarixində "Əsrin müqaviləsi" imzlanmışdır. Bu vaxtdan etibarən məşhur şirkətlər müqavilələr bağlamışdılar. Xəzərin Azərbaycanda olan payı onun dünya miqyaslı inkişafına imkan yaratmışdır. Xam neftin dünya bazarında dəyəri inkişafımızın göstəricisidir.

Ölkədə çəkilən neft boru kəmərləri, nəqliyyat dəhlizləri iqtisadi inkişafa təkan verir. Ümumiyyətlə, Avropa və Asiyada 30-dan çox ölkəni birləşdirən nəqliyyat dəhlizi tranzit imkanı yaradır.

Xarici əlaqələrin əsasında duran strategiyalar nəticəsində xarici əlaqələr genişlənib inkişaf edir. Bunlara aid edilir:

- ixrac imkanlarının formalaşması;
- ixracın strukturunun müəyyən edilməsi;
- iqtisadi strukturun dəyişdirilməsi;
- ixracın stimullaşdırılması;
- rəqabətin artırılması;
- investisiyaların artırılması;
- idxal və ixracın gücləndirilməsi.

Ölkəmizdə ixrac potensialı genişlənib və struktur baxımdan dəyişdiril - mişdir. Xammal ixracında rəqabətin müəyyən edilməsi üçün müəyyən göstəricilər önə çıxarılır.

# III FƏSİL. GÖMRÜK TARİF TƏNZİMLƏNMƏSİNİN VƏ XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

## 3.1.Regional iqtisadi əməkdaşlığın genişləndiyi bir şəraitdə Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin tənzimlənməsi məsələləri

Xarici əlaqələr regional inteqrasiyanın əsasında baş verir. Milli iqtisadiyyat inteqrasiya əsasında inkişafa meyl edir. Hər bir ölkə inteqrasiya axınına qovuşaraq istehsal gücünü möhkəmləndirir. Beynəlxalq əmək bölgüsü istehsalın səmərəliliyini artırır. İqtisadi əlaqələrdə formativlər mütləq olaraq müəyyən olunmalıdır. Dünya ölkələrində inkişafın baş verməsi regional və beynəlxalq baxımdan baş verir.

Müstəqil olan ölkəmiz artıq sərbəst siyasət yürütmək iqtidarındadır. Elə buna görə də ölkədə baş verən inkişaf da bu baxımdan verir. Azərbaycanın inkişaf etməsi yalnız əlverişli coğrafi şəraitdə mümkündür. Ölkəmiz gün, ay, il keçdikcə dəyişib inkişaf edir. Bu inkişaf da ölkənin iqtisadi gücünün artması deməkdir.

Mülkiyyətin müxtəlif formalarının olması, maddi-texniki bazanın möhkəm olması və kooperasiyanın genişlənməsi nəticəsində iqtisadi əlaqələr də durmadan genişlənir. Ölkədə iqtisadi artım, dinamik inkişaf islahatların göstəricisi kimi qiymətləndirilir. Belə ki, ölkədə özünü göstərən inkişaf məhz islahatların nəticəsində gerçəkləşdiyindən onun dünya miqyasında inkişafının göstəriciləri də öz axarında baş verir.

Ümumi olaraq deyə bilərik ki, ölkəmizdə neft sənayesi dayanmadan inkişaf etməkdədir. Son illərdə inkişaf neft ilə bağlı strategiyaların yaranması zərurətini qarşıya qoymuşdur. Neft sektorunun inkişafı sazişlərin imzalanması və ikitərəfli beynəlxalq aktların qüvvəyə minməsində özünü göstərir.

İndiki dövrdə neft sektorunun ÜDM-də rolu 22% təşkil edir. Əlavə olaraq onu da qeyd edək ki, xarici investisiya bank sektoruna da təsir göstərir. İnvestisiyaların yatırılması işində başlıca məqsəd xarici kapitaldan gəlir götürməkdir. Ölkədəki 7 - 8 bankdan xarici kapital əldə olunur. Halbuki, respublikada 23 bank fəaliyyət göstərir. Xarici kapital 7 bankdan 55%, 14

bankdan isə 45% həcmində götürülmüşdür. Xarici banklarda yerli filiallar üzrə 12% kapital götürülə bilir. "Nabukko" layihəsinə xarici investorların maraq göstərməsi onun həcminin geniş və çox olmasıdır. Buradan götürülən gəlirlər getdikcə artmaqdadır. Bu da maraq və şəxsi mənafelərin artması deməkdir.

Axır zamanlarda xarici ticarət inkişafda yeni mərhələyə qədəm qoymuşdur. 2018-ci il üzrə dəyərləndirmə aparmalı olsaq, görərik ki, 2018-ci ilin yanvar ayından başlayaraq dekabr ayına kimi olan müddətdə ölkənin xarici ticarət üzrə dövriyyəsinin dinamikası yüksək olmuşdur. Bu həcm 12544,8 milyon ABŞ dolları, həmçinin idxalın həcmi isə 6007,5 milyon ABŞ dolları, ixracın həcmi isə 6645,3 milyon ABŞ dolları təşkil etmişdir.

Azərbaycan 138 ölkə ilə ticarət əlaqələri qurmuşdur. İdxal-ixrac prosesi Avropa Birliyi ilə 29%, MDB ölkələri ilə 26%, digər ölkələrlə 50% təşkil edir. 48% Avropa ilə, 45% Asiya ilə, 8,1% Amerika ilə, 1% isə Afrika qitəsi ölkələri ilə, 0,3% Okeaniya ilə xarici ticarət əlaqələr aparılır. Ötən il xarici ölkələrdən texniki yardım 70% həcmində olmuşdur.

**Şəkil 7: Xarici ticarət dövriyyəsinin strukturunda xarici ölkələrin çəkisi**




**Mənbə:** 15. K.F. Sadiqov, K.S. Qafarov, N.N. Bədirov "Xarici iqtisadi fəaliyyətin makroiqtisadi tənzimlənməsi" mənbəyi əsasında "Müəllif tərəfindən tərtib edilmişdir".

Yuxarıdakı diaqramda ölkəmizlə xarici ticarət dövriyyəsinin strukturunda xüsusi çəkiyə malik olan xarici ölkələr göstərilmişdir. Bu ölkələrə Fransa Respublikası, Almaniya Federativ Respublikası, İngiltərə və İtaliya aiddir. Ölkələrdən birinci yeri Fransa respubikası tutur. 2018-ci ildə ən çox xarici ticarət dövriyyəsinə malik olan ölkə Fransadır. Onun həcmi 200,0 milyon ABŞ dolları təşkil etmişdir. İdxalın həcmi 36 milyon ABŞ dolları, ixracın həcmi isə 77 milyon ABŞ dolları təşkil etmişdir. Bu dövrdə ticarətdə saldomuz 42 milyon ABŞ dolları təşkil etmişdir.

İkinci yeri 2018-ci ildə Almaniya Federativ Respublikası tutur. Ümumi ticarət dövriyyəsinin həcmi 188 milyon 650 min ABŞ dolları, həmçinin idxalın həcmi 185 milyon 600 min ABŞ dolları, ixracın həcmi isə 8 milyon 135 min ABŞ dolları təşkil etmişdir. Bu dövrdə saldomuz mənfi nəticə vermişdir. Belə ki, 190 milyon 300 min ABŞ dolları olmuşdur.

2018-ci ili üzrə İngiltərə ilə, xüsusilə Böyük Britaniya, Şimali İrlandiya Birləşmiş Krallığı ilə olan əlaqə ümumi ticarət dövriyyəsinin həcminə görə 90 milyon ABŞ dolları, həmçinin idxalın həcmi 90, 3 milyon ABŞ dolları, ixracın həcmi isə 600, 1 min ABŞ dolları təşkil etmişdir. Saldomuz isə mənfi 82% olmuşdur.

İtaliyanın xarici ticarət dövriyyəsindəki payı 10%, həmçinin idxalda 16%, ixracda isə 29% olmuşdur. Bunu məbləğlə bildirməli olsaq qeyd edə bilərik ki, ticarət dövriyyəsinin həcmi 1 milard 85 milyon ABŞ dolları, həmçinin idxalın həcmi 150 milyon ABŞ doları, ixracda həcmi 200 milyon ABŞ dolları olmuşdur.

2000-2018-ci illərdə xarici invetisiyalar 12% artmışdır. Xarici investisiyalar ölkə üzrə 60,1% göstəriciyə malik olmuşdur. Azərbaycan iqtisadiyyatına qoyulan investisiya mənbələri maliyyə kreditləri, neft sektoruna qoyulan sərmayələr, şirkətlərə qoyulan investisiyalardır.

Xarici investisiyaları idarə edən dövlətlər arasında Türkiyə, ABŞ, Almaniya, Böyük Britaniya üstün yerdə olmuşlar. Mədənçıxarma sənayesinə

92,3% yönəlmişdir. Qeyri-neft sektorunun payının artırılması səmərəliliyi daha da yüksəltmişdir.

2018-ci ili üzrə ölkənin sosial və iqtisadi rifahına nail olmaq üçün 8060,5 milyon manat investisiya qoyulmuşdur. Bunların 6072,4 milyon manatı daxili investisiyalar, 1588,2 milyon manat isə xarici investisiyalar təşkil etmişdir. Xarici investisiyanın 74%-i qeyri-neft, 26%-i isə neft sektorunun payına düşür. Xarici investisiyanın 88,2%-i Böyük Britaniya, ABŞ, Yaponiya, Fransa, Norveç, Çexiya və Türkiyə investorlarının payına düşmüşdür.

Ölkəmizin xarici iqtisadi münasibətləri tənzimləməsi istiqamətlərinin böyük hissəsini daxili bazardakı xarici rəqabət təşkil edir. Xarici əlaqələrdə tarif tənzimlənmə ənənəvi olaraq həyata keçirilir.

Tarif tənzimlənmədə məhsulların idxal və ixracı ilə bağlı rüsumların dərəcələri daim sabit qalmır. O həm azala, həm də arta bilir. Tarif tənzimlənmədə milli iqtisadi təhlükəsizlik, ictimai qaydalar, həyat və sağlamlığın qorunması, cəmiyyətin əxlaqi və mənəvi dəyərləri nəzərə alınır.

Gömrük ödənişləri ilə büdcənin doldurulması diqqəti cəlb edən məsələlərdəndir.Xarici iqtisadi əlaqələrin tarif tənzimlənməsinin görülən məqsədləri vardır. Bu məqsədlər aşağıdakılardır:

- idxalı səmərəliləşdirmək;
- valyuta gəlirlərini tənzimləmək;
- valyuta ilə rəqabət dinamikliyini artırmaq;
- inteqrasiya yaradaraq əlaqələri genişləndirmək.

Gömrük tariflərinin təşkil edilməsində bir neçə istiqamət mövcuddur. Bunlar düzgün müəyyənləşdirildikdə tarif təsnifatı, tariflərin quruluşu, idxal və ixracdakı rolu dəqiqləşdirilir (Sadiqov K.F., Qafarov K.S., ..., 2007).

Gömrük tarifləri iqtisadi mexanizmi təşkil edir. Bu rüsumlar malın qiymətinə təsir edir. Kapital yığılması, mənfət kimi amillər dinamikanın tempini artırır.

Xarici bazarla daxili bazarın əlaqəsi nəticəsində gömrük tarifi formalaşdırılır. Sərhəddən keçiriməsində gömrük tarifi onun həcminə görə

tətbiq edilir. Qiymətin müəyyən edilməsi xarici rəqabət prosesində mühım yer tutur.

Gömrükdə qiymətyaratma idxal-ixrac əməliyyatlarının hesabına baş verir. Gömrük rüsumu – məhsullar ölkə ərazisinə gətiriləndə sərhəddə müəyyən haqq tələb olunur. Balanslaşdırıcı xüsusiyyətə malik olan gömrük rüsumları bir çox təhlükəsizlik amillərini formalaşdırır.

Keyfiyyətə görə məhsullarda 90 günlük norma tətbiq edilir. Keyfiyyət məhsulların, xidmətlərin, sistemlərin və proseslərin təkmilləşdirilməsindən, bütün təşkilatın uyğun və effektiv olmasını təmin etmək üçün əsas meyardır (Əliyev A.Ə., 2003:s.38).

Gömrük işində mükəmməlliliyə nail olmaq üçün keyfiyyət əsas götürülür. Gömrük işində radioaktiv material, narkotik və psixo-farmatik məhsulların idxalı qadağandır. Neft sənayesi üçün nəzərdə tutulmuş odlu silah, partlayıcı və radioaktiv avadanlıqların idxalı lisenziyaya sahibdir.

Alkoqol, tütün, ət bazlı qida məhsulları və s. kimi müəyyən məhsulların idxalı idxal üçün kvota və ya lisenziyalarla məhdudlaşdırılır.

Gömrük idarəsindəki korrupsiya məhsulların Azərbaycana gətirilməsi zamanı da bir maneə ola bilər. Gömrük işində qadağanların, qaydaların olması başlıca şərtdir. Çünki bu təhlükəsizlik və iqtisadi inkişaf üçün əsasdır (Şəkərəliyev A.Ş., Şəkərəliyeva Z.A.,2005).

Ümummilli liderin aparmış olduğu siyasətin nəticəsi gömrük işində özünü göstərmişdir. Bu gün isə siyasəti uğurla davam etdirən cənab prezidentimiz İ.H.Əliyevdir. Ölkə başçısı gömrük işinin şəffaf və mükəmməl şəkildə olması üçün bir çox islahatlar aparır.

DGK və onunla yanaşı digər orqanlar gömrük işində struktur dəyişikliyin nəticə verməsi üçün çalışırlar. Azərbaycanın xarici iqtisadi əlaqələri Amerika, Latviya, Türkiyə, Polşa, Macarıstan ilə daha sıx, daha qabarıq formadadır. Gömrük sahəsində bir ümumi məqsəd mövcuddur. O da inkişaf üçün çalışmaq, onu daha da təkmilləşdirməkdir.

Gömrük işində aparılan təkmilləşdirmə işləri onun inkişafına təkan verir. Dünya ölkələrinin və Azərbaycanın təcrübəsinə baxsaq görərik ki, dövlətlər arasında iqtisadi münasibətlər genişlənməyə doğru addım atır. Beynəlxalq əmək bölgüsünə görə iqtisadi münasibətlər sistemi əsasən geniş miqyasda həyata keçirilir.

Dünyanın bir neçə ölkəsində xarici münasibətlər sistemi beynəlmiləlləşdirilir. Xarici iqtisadi fəaliyyət sertifikasiya üzrə kreditləşmə sistemini həyata keçirir. Beynəlxalq müqavilələrdə maliyyə üzrə öhdəliklərin əsasında iqtisadiyyatın bir budağı olan gömrük inkişaf edir.

İndiki dövrdə iqtisadi inkişaf həyata keçiriləndə burada beynəlxalq səviyyəli məsələlər nəzərə alınır. Xarici iqtisadi inkişafın əsasında duran qarşılıqlı razılıq müqavilələri iqtisadi həyatın ayrılmaz hissəsidir. İnvestisiya hadisələri inteqrasiyanı doğuran məsəllərdən biridir. Xarici iqtisadi əlaqələr gömrük üsullarının sürətlənməsini təşkil edir.

Xarici fəaliyyətdə nəzarətin realizəsi onun üstünlüyü, məqsədi, məhdudiyyətləri ilə müəyyən olunur. Xarici fəaliyyət tənzimlənməni həyata keçirmək üçün milli iqtisadi vasitələrdən istifadə edir. Üç qrup şəklində bölüşdürülən fəaliyyət mexanizmi gömrük orqanlarının fəaliyyətinin əsasını təşkil edir. Gömrük vergisi istehsalçı və istehlakçı arasında əlaqəni tənzimləyir. ÜGT ilə əməkdaşlıq gömrük sistemində yeniliklərə qapı açır.

İdxal vergisi tətbiq edildikdə istehsalçıların haqlarını müdafiə etmək üçün əsas meyardır. Belə ki, bu vergi vasitəsilə istədiləri qiyməti tətbiq edə bilirlər. Tutulma formalarına görə gömrük vergiləri müxtəlif olduğu kimi onların məhsullara tətbiqi də müxtəlifdir.

Gömrük tarifində bağlanmış müqavilələr rüsumları müəyyən edir və onların güzəştli olaraq idxalına şərait yaradır. Gömrük sahəsində istehsal və istehlak olunan malar rəqabət mühitini formalaşdırığından onun təsirləri sıfıra endirilir. Ölkənin antidempinq rüsumunda ölkədəki gömrük məhsulları ixrac edilə bilər. Latviya ilə Azərbaycan əlaqələrində diqqəti cəlb edən məsələ

gömrük sahəsinin tam inkişafı üçün zəmin yaradır. Diplomatik görüşlərdə gömrük sahəsində beynəlxalq təşkilatların rolu da dəyərləndirilmişdir.

Narkotiklərin ölkəmizə qaçaqmalçılıq yolu ilə gətirilməsi gömrük nəzarəti sistemini formalaşdırır. Burada ciddi nəzarətin aparılması mexanizmi qlobal praktikaya tətbiq edilir. İdxal və ixracda gömrük sahəsində aparılan tədqiqat 20-50 arasında dəyişir. Gömrük orqanlarının nəzarət mexanizmi də DGK tərəfindən müəyyənləşdirilir.

İslahatların aparılması gömrük orqanlarında qanunsuz dövriyyənin də qarşısını almışdır. 2018-ci il üzrə qaçaqmalçılıq və sərhədi qanunsuz pozma halları 2347 dəfə baş vermişdir. Ölkə ərazisinə narkotik vasitələrin keçirilməsi halı qanunvericiliklə müəyyən edilmiş (CM-nin 234 və 235-ci maddələri) qaydada tənzimlənir.

İndiki dövrdə qanunsuz dövriyyənin qarşısının alınması ilə hüquqi və iqtisadi sistem təkmilləşir. İnkişaf proqramı gömrük tariflərini qeydiyyata alıb təkliflər irəli sürməyə əsaslanır. Nəqliyyat vasitələri ilə də nəzarətin təşkil olunması üçün bir çox mexanizmlər vardır. Daxili bazarda sahibkarlıq malları və mədəni sərvətlər xüsusi çəkini təşkil edir (Маховикова Г. A.,2016:s.35).

Xarici iqtisadi fəaliyyət gömrük rejiminin hüquqi tənzimlənməsi sistemini təşkil edir. Gömrük brokerləri bir sıra informasiya rabitələri ilə əlaqə quraraq informasiya sistemini və gömrük xidmətini standartlara uygunlaşdırırlar.

Xam neft məhsulları tranzit daşımada və emalı prosesində struktur ilə bağlı dəyişikliklər yaradır. Gömrük yaradılması sistemində nəqliyyat və inkişaf amilləri zəruri hesab edilir. Dövlətin idarə sistemində əsas götürülən gömrük orqanları ilə bağlı məsələlər zəruri inkişafın başlanğıcıdır.

Gömrük sistemində boşluq yaranarsa bu zaman bir sıra məsələlər özünü göstərir. Bunlara isə qaçaqmalçılıq və qanun pozğunluqlarının baş alıb getməsi daxildir.

Gömrük məsələləri sistemdə birləşərək ölkənin gələcəyi üçün inkişafa yönəlir. Regional iqtisadi əməkdaşlığın genişləndiyi bir şəraitdə Azərbaycan

Respublikasının xarici iqtisadi əlaqələrinin tənzimlənməsi məsələlərinə aşağıdakı - lar aid edilir:

1. qanunvericilik aktlarının qəbul edilməsi;
2. hüquqi-normativ bazanın təkmilləşdirilməsi;
3. inkişafda əlaqələrin beynəlmiləlləşdirilməsi;
4. təşəkkül prosesində regional əlaqələrin genişləndirilməsi və s.

**3.2. Azərbaycan Respublikasının ÜTT ilə iqtisadi əməkdaşlığı və xarici iqtisadi əlaqələrin gömrük tarif tənzimlənməsindəki inkişafının əsas istiqamətləri**

Ölkəmizin ÜTT-yə üzv olması ilə başlayan inkişaf prosesi XX əsrə gedib çıxır. Bu dövrdə ÜTT ilə əməkdaşlıq işçi qrupun iclaslarına əsaslanaraq dəyişikliklərə uğrayır. 1997-ci ildən başlayaraq ÜTT ilə əməkdaşlıqda saysız sayda iclaslar təşkil olunub keçirilmişdir.

ÜTT ilə əməkdaşlıqda 2004-cü ildən bu günə kimi saysız sayda iclasların təşkil olunması bir sıra məsələlərin həlli üçün imkan yaratmışdır. ÜTT ilə əməkdaşlıqda iqtisadi tərəfdaşlıq da önəmli məsələlərdəndir. Burada gömrük tarif tənzimlənmə ilə əlaqəli bir sıra məsələlər vardır.

Respublikamızda xarici əlaqələrin genişlənməsi üçün addımlar atılır. Belə ki, genişləndirmə tədbirlərinin bazasında əlaqələrin hərtərəfli təşkil olunması mühüm məsələlərdəndir. ÜTT ilə əməkdaşlıq zamanı işçi qrupda 2008-ci ildə iclasın təşkil olunması zamanı qanuni normativlərin gözlənilməsi ilə bağlı məsələlər həll olunmuşdur.

Qeyri-neft sektorunun inkişaf etməsi gömrük işini bir qədər asanlaşdırmışdır. Müəyyən edilmiş Strateji Yol Xəritəsi və Proqramları ticarət və xarici ticarət əlaqələrinin infrastrukturunu daha da yaxşılaşdırmışdır. ABŞ, Aİ və Türkiyə xarici iqtisadi əlaqələri gün keçdikcə genişləndirir.

Gömrük tarif tənzimlənməsində rüsumlar onu daha da inkişaf etdirir. ÜTT ilə əmədaşlıq prosesində respublikamızın onunla əlaqə yaratması ikitərəfli prosesi sürətləndirmişdir. Azərbaycanın əməkdaşlıq qurmasında və

ÜTT-yə üzv seçilməsində 22 ölkə ilə əlaqə qurmuşdur. Türkiyə, BƏƏ və Gürcüstan ölkəmizin inkişafı üçün əlaqələri genişləndirmişdir. 2015-ci ildə xarici əlaqələr 28%, 2018-ci ildə isə 55% artmışdır.

ÜTT-nin tərəfdarları, xüsusilə çoxmillətli şirkətlər (MNC), ÜTT-nin biznes üçün faydalı olduğunu düşünür. Skeptiklər, ÜTT üzvi demokratiyanın prinsiplərini pozduğuna və beynəlxalq zənginlik boşluğunun genişləndiyinə inanırlar. ÜTT-nin məlumatına görə, 2016-cı ilin iyul ayından etibarən ÜTT-də 164 üzv ölkə və 23 "müşahidəçi" ölkə var.

ABŞ-ın beynəlxalq ticarət razılaşmalarını yenidən müzakirə etmək cəhdlərinin bir hissəsi kimi, prezident Trump ÜTT-dən geri çəkilməklə təhdid etdi və bu "fəlakət" adlandırdı. ÜTT-dən ABŞ-ın çəkilməsi dünya ticarətində trilyonlarla dollar poza bilər.

ÜTT xalqlar arasında qlobal ticarət qaydalarını nəzarət edir. ÜTT qloballaşma prosesini həm müsbət, həm də mənfi təsirlərlə genişləndirir.

ÜTT-nin əsas məqsədi üzvləri arasında ticarətlə bağlı açıq ünsiyyət xəttlərinin təmin olunmasıdır.

ÜTT əsasən alternativ mübahisələrə və ya vasitəçilik quruluşuna malikdir ki, bu da xalqlar arasında ticarətin beynəlxalq qaydalarına riayət edir. ÜTT-nin səyləri qlobal ticarətin genişlənməsini artırdı, lakin yan təsir yerli icmalara və insan hüquqlarına mənfi təsir göstərdi.

ÜTT-nin müdafiəçiləri azad ticarətin stimullaşdırılması və ticarət mübahisələrində qlobal iqtisadiyyata xeyirli olan bir azalma hesab edirlər. Ümumdünya Ticarət Təşkilatının tənqidçiləri dünya iqtisadiyyatına mənfi təsir kimi yerli sənayelərdə azalma və xarici təsirlərin artması nöqtəsini göstərir.

ÜTT üzv dövlətlərin ticarət məsələlərini digər üzvlərlə müzakirə etməyə və həll etməyə imkan verən bir platforma təmin edir. ÜTT-nin əsas məqsədi onun üzvləri arasında ticarətlə bağlı açıq ünsiyyət xəttlərinin təmin olunmasıdır. Məsələn, ÜTT üzv ölkələr arasında ticari maneələri və ticarətin artımını azaldır. Digər tərəfdən, bu, qlobal kontekstdə bunu etmək məcburiyyətində olduqda ticarət

maneələri də saxlamışdır. Buna görə də, ÜTT, qlobal iqtisadiyyata üstünlük verən danışıqlar vasitəçiliyi təmin etməyə çalışır.

Danışıqlar başa çatdıqdan və razılığa gəldikdən sonra, ÜTT gələcək mübahisədə bu müqaviləni şərh etməyi təklif edir. Bütün ÜTT müqavilələri bir həll prosesini əhatə edir, bununla da təşkilat hüquqi olaraq neytral münaqişənin həlli aparır.

Danışıq, vasitəçilik və ya qətnamə heç bir əsas DTT müqaviləsi olmadan mümkün ola bilməz. Bu müqavilələr ÜTT-nin nəzarət etdiyi beynəlxalq ticarət üçün hüquqi əsas qaydalarını müəyyən etmişdir. Bir ölkənin hökumətini gələcək ticarət siyasətlərini müəyyən edərkən müşahidə edilməsi lazım olan bir sıra məhdudiyyətlərə bağlayırlar. Bu sazişlər istehsalçıları, idxalçıları və ixracatçılarını qorumaqla yanaşı, dünya hökumətlərini xüsusi sosial və ekoloji standartlara cavab verməyə təşviq edir.

Qarşılıqlı əlaqələrdə bir neçə məsələlərə nəzarət edilib təhlillər aparılır. Təhlil nəticəsində əlaqələrin genişliyi müəyyən edilmişdir. ABŞ, İsveç, Tailand və başqa ölkələr ilə qarşılıqlı əlaqələrdə aidiyyatı qurumlar da rol oynayırlar.

Gömrük işində xarici əlaqələrin tənzimlənməsi ilə əlaqədar olaraq yaradılan institutlar onun tərkibində əsas zərrəni təşkil edir. Məhsul istehsalında faktorların müəyyən olunması və idxala şəraitin yaradılması başlıca göstəricilərdir (Şəkərəliyev A.Ş.,1999:s.36).

Milli iqtisadiyyatda təhlükəsizlik üzrə işlər daim görülməlidir. İxrac və idxalda göstərilən tələblər valyutanı sistemləşdirir. Gömrük xidməti valyuta və maliyyə işinə də təsir göstərir. Elmi proqnozlarda ödəmə sistemləri xarici investorlara görə müəyyən edilir.

ÜTT ilə əməkdaşlıq 12 ölkə daxilində baş verir. 50-dən çox qanunvericilik aktlarında investisiyaların önəmi qeyd olunmuşdur. Gömrük işində investisiyalar ilə tənzimlənən məsələlər aşağıdakılardır:

- Dövlətin rolu;
- Kommersiya danışıq hüquqlarında qloballaşmanın gətirdiyi problemlər;

- İqtisadi fəaliyyətin stimullaşdırılması;
- İdxalın qarşısının alınması və s.

Respublikamızın ÜTT-yə üzv olması və əlaqələri genişləndirməsində məqsəd nədir?

- Dünya iqtisadiyyatına qoşulmaq;
- İqtisadi inkişafı sürətləndirmək;
- İqtisadi islahatları böyük həcmdə aparmaq;
- Birbaşa xarici investisiyaları ölkə iqtisadiyyatına cəlb etmək;
- Qloballaşmanın gətirdiyi problemləri aradan qaldırmaq;
- Ticarət əməliyyatlarını genişləndirmək;
- ÜTT-nin üzv olan ölkələrə verdiyi güzəştlərdən yararlanmaq və s.

Bildirək ki, ölkələr arasında əlaqələr maksimum şəkildə təşkil edilir. Uuznmüddətli kreditlərin verilməsi ilə bağlı məsələlər də az əhəmiyyətli deyildir. Kənd təsərrüfatı məhsullarına investisiyaların verilməsi və danışıqların aparılmasının istiqamətində qazancların əldə edilməsi onu daha da genişləndirir.

Azərbaycanın beynəlxalq təşkilatlar ilə əməkdaşlığı liberallıq yaradan məsələlərdəndir. ÜTT ilə əməkdaşlıq çərçivəsində itkilər və gəlirlər mütləq nəzərə alınır. İdxal olunan məhsuların gömrük dəyərləri və onların inkişafı ilə bağlı məsələlər də beynəlxalq valyuta sistemində və diapazonda uyğunlaşdırma ilə bağlı məsələlər də nəzərə alınmalıdır.

Qırğızıstanda gömrük ilə bağlı məsələlər ölkə iqtisadiyyatının 50 faizini təşkil edir. Türkiyədə gömrük ilə bağlı məsələlərdə ortalama faiz çıxarmış olsaq deyə bilərik ki, 5,4 faiz təşkil edir. Çin Xalq Respublikasında gömrük qəbul etmələri 65 faiz təşkil edir (Демичев А.А., 2015:s.23).

Bu gün dünyanın qabaqcıl ölkələri gömrük sahəsində siyasətlərini uzun müddətdir ki, aparırlar. Onlar təkmiləşdirmə işlərini uzun zamandır ki, görürlər. Mülki və hüquqi yollarla gömrük işlərini yerinə yetirirlər.

Araşdırmalardan aydın olur ki, ölkəmizin ixrac ilə bağlı məsələləri inkişaf etməlidir. Beynəlxalq əməkdaşlığı daha da gücləndirilməli və genişlən-

dirilməlidir. Bildirək ki, iqtisadi və sosial məsələlər maliyə qurumları üçün strateji əlaqələr yaradır. İqtisadiyyatın inkişafı ilə bağlı məsələlərdə enerji və məhsul istehsalı strateji əlaqələr hesab edilir. 35 il müddətində verilən borclar 1,36% təşkil edibdir.

Qeyd edək ki, xarici borclanma dövlətin kredit imkanını daha da səfərbər edir. Beynəlxalq səpkidə atılan addımlar maliyyə qurumlarını daha da inkişaf etdirərək ölkənin iqtisadiyyatını gücləndirir.

Beynəlxalq maliyyə qurumları və gömrük orqanları qarşılıqlı olaraq fəaliyyət göstərirlər. Ölkə iqtisadiyyatında III tərəfin olması kreditor, investor və dövlət üçlüyünü formlaşdırır. Beynəlxalq maliyyə və gömrük orqanı təsərrüfat sistemini daha da inkişaf etdirir. Subyektlər arasında investisiya yatırımları gömrük orqanlarının təsərrüfat imkanlarının genişliyi sazişlərlə də özünü göstərir.

Azərbaycan iqtisadiyyatında maliyyə ilə bağlı məsələlərdə beynəlxalq əsas götürülür. Respublikanın iqtisadiyatında perspektiv inkişaf məsələləri uzunmüddətli strategiya kimi diqqəti cəlb edir. Gömrük işinin 2025-ci ildə daha da inkişaf etməsi əsas məsələ kimi 1-ci yerdədir.

Ölkə iqtisadiyyatının inkişafında məşğulluğun təminatı müxtəlif istiqamətlər üzrə baş verdiyindən bu da öz növbəsində iqtisadiyyata və gömrüklə bağlı məsələlərə də təsir göstərir. Məhsul və nəqliyyat vasitələri idxal olunanda ölkədə gömrük sistemi daha da inkişaf etmişdir. Sahibkarlıq gömrük işinin əsasını təşkil etdiyindən onun inkişafı üçün bir çox kateqoriyalara da önəm verilir.

Ölkə başçısının imzalamış olduğu sərəncam və fərmanlarda da gömrük işçiləri və ya gömrük xidməti xüsusi şəkildə vurğulanaraq onların gördüyü işlərin önəmi qeyd olunur. Bu baxımdan stimulaşdırma tədbirləri yerinə yetirilir. Ölkə iqtisadiyyatının mövqeyi gücləndirilmişdir.

Yuxarıda qeyd edilənlər investisiya ilə bağlı məsələlərdə sahibkarlığı inkişaf etdirir. 2018-ci ildə sahibkarlığın xarici əlaqələrdəki rolu 67% təşkil etmişdir. İnfrastrukturun inkişafı ilə bağlı məsələlər pespektivlərə yol açır.

Hazırki dövrdə qarşıda duran məsələlər Azərbaycan iqtisadiyyatını inkişaf etdirir. Ölkədə aparılan iqtisadi islahatlar gömrük işini təkmilləşdirmiş və obyektivliyin inkişafına imkan vermişdir.

Qeyri-neft sektorunun inkişafı ixrac amillərini gücləndirir. Qeyri-neft sektorunun inkişafına büdcə vəsaiti təsir göstərir. Ölkə iqtisadiyyatının inkişafı beynəlxalq reytinq cədvəllərində və statistikada özünü göstərir.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Tədqiqat zamanı bir sıra nəticələr əldə olunmuşdur. Bunlar aşağıda verilmişdir:

1.Xarici ticarət əlaqələri ölkə iqtisadiyyatının inkişafında aparıcı meyardır. Onun inkişafı mütləq şəkildə təmin olunmalıdır. Xarici ticarət dövriyyəsi idxal və ixraca görə geniş şəkildə təmin olunmalıdır. Xarici ticarət həcmi ərazi, resurs baxımından dəyərləndirilir. Dövlətin daxil olduğu xarici ticarət sistemi liberallaşmaya əsaslanır. Xarici ticarət əlaqələri genişləndikcə iqtisadiyyat dinamik şəkildə inkişaf edir.

2.Müstəqillik əldə olunandan sonra ölkəmizdə xarici iqtisadi əlaqələr inkişaf etməyə başlamışdır. Respublikamızın ÜTT-yə üzv olması ilə ticarət münasibətləri genişlənmiş, dinamik bir formada idxal və ixrac əməliyyatları inkişaf etmişdir. MDB ölkələri ilə əlaqələrin möhkəmlənməsi idxal və ixracda olan rüsumların tənzimlənmə mexanizmi ilə inkişafını sürətləndirir.

3.Qloballaşma prosesində əməkdaşlıq ölkələrin ticarət mexanizmini genişləndirir. İqtisadiyyatımızın inkişafı üçün investisiya imkanları genişlənir. Xarici investisiyaların ölkə iqtisadiyyatının neft və qeyri-neft sektoruna qoyulması onun inkişaf mexanizmini gücləndirir. Birbaşa investisiyalar da ölkənin gömrük işinin təkmilləşməsinə xidmət edir.

4.Ölkəmizdə maliyyə sahəsində aparılan iqtisadi islahatlar valyuta sisteminin beynəlxalq səviyədə inkişafını təmin edir. Onun inkişafı ilə bağlı məsələləri təhlil edir. Sürətli iqtisadi islahatlar yaxşı infrastruktur yaradır.

5.Balanslaşdırılmış iqtisadi amillər beynəlxalq kapitalın, əmtəə və informasiyanın inkişafını sürətləndirir. Tədiyə balansı, gömrük daxilolmaları da iqtisadiyyatın inkişafa meyl etməsi baxımından geniş imkan yaradır. Stimullaşdırmaq baxımından iqtisadi inkişaf rəqabət prosesini təmin edərək əlaəqləri genişləndirir.

6.Ölkə başçısının gömrük işini təkmilləşdirmək üçün imzaladığı sərəncam və fərmanlarda da gömrük tarif tənzimlənmələri məsələləri qeyd

edilmişdir. “Gömrük haqqında” qanunda da gömrük tarifi məsələləri də öz əksini tapmışdır.

Əldə olunan nəticələr qənaətbəxşdir. Bu nəticələrə əsaslanaraq aşağıdakı təklifləri vermək olar:

1. Gömrük sisteminin inkişafı idxal səviyyəsinin əsasında baş verməzsə, bu zaman daha dinamik formada olan inkişafa nail olmaq olar;

2. Gömrük xidmətində qanunvericiliyin pozulduğu hallar (qaçaq malçılıq, sərhəd keçmək) olarsa bu zaman post nəzarətində texniki qurğu mexanizminin gücləndirilməsi daha yaxşı olar;

3. Gömrükdə texnologiyanın birbaşa asılılığını aradan qaldıraraq orqanların iş mexanizm sistemini dəyişdirmək uğurlu nəticələnə bilər;

4. Xarici iqtisadi əlaqələrin baş tutmadığı ölkələrdə genişspektrli inkişafı təmin etmək ixracın genişlənməsinə yol aça bilər.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində


1. Azərbaycan Respublikasının Gömrük taarifi haqqında qanunu. 20.06.1995.
2. Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan malların gömrük qiymətləndirilməsi sisteminin tətbiqi qaydaları haqqında Nazirlər Kabinetinin qərarı. //№7, 12 yanvar, 1998.
3. Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mal və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi və onlar üzərində gömrük nəzarətinin həyata keçirilməsinin nümunəvi qaydaları. DGK-nin № 62, 6 sentyabr, 2002- ci il tarixli.
4. Azərbaycan Respublikasının qanunvericilik toplusu.// №3, 1998.
5. Azərbaycan Respublikası Gömrük Məcəlləsi. 2001, Bakı: Hüquq ədəbiyyatı
6. Azərbaycan Respublikasi gömrük sisteminin 2007-2011-ci illərdə inkişafına dair Dövlət proqramı. Azərbaycan qəzeti №22 ,2 fevral, 2007.
7. A.Ə. Əliyev (2003). "Gömrük işi və dünya iqtisadiyyatının inkişafı" *(monoqrafiya)*, Bakı, "Çaşıoğlu". -240 səh.
8. A.M. Məhərrəmov, H.H. Aslanov (2001) "Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi" *(dərs vəsaiti)*, Bakı, "Elm və təhsil". -350 səh.
9. H.P. Allahverdiyev, K.S. Qafarov (2002) "Milli İqtisadiyyatın Dövlət Tənzimlənməsi" *(dərslik)*, Bakı, "Elm". -342 səh.
10. K.F. Heydərov (1998) "Gömrük işinin əsasları. Gömrük işinin təşkili və texnologiyası" *(monoqrafiya)* , Bakı, "ADİU nəşriyyatı".-344 səh.
11. K.F.Heydərov (2004) "Gömrük işinin əsasları" *(monoqrafiya)*, Bakı, "Qanun". -568 səh.
12. K.F. Heydərov, C.Q. Həsənov (2003) "Azərbaycan Gömrük xidməti yeni dünya təsərrüfat münasibətləri şəraitində" *(dərslik)*, Bakı, "Elm".-230 səh.

*13.* C.Q. Nuriyev, A.Ş.Şəkərəliyev, A.Ə.Əliyev (2003) "Gömrük Ekspertizası" *(dərslik)*, Bakı, "Elm".-423 səh.

14. C.Q. Nuriyev, A.Ş.Şəkərəliyev, M.C. Atakişiyev (2003) "Gömrük işinin təşkili və idarə edilməsi" *(dərslik)*, Bakı, "Mütərcim". -328 səh.

15. K.F. Sadiqov, K.S. Qafarov, N.N. Bədirov (2007) "Xarici iqtisadi fəaliyyətin makroiqtisadi tənzimlənməsi" *(dərslik)*, Bakı, "Səda".-270 səh.

16. A.Ş. Şəkərəliyev, Z.A. Şəkərəliyeva (2005) "Gömrük işinin təşkili və idarə olunması" *(dərslik)*, Bakı, "Səda". -250 səh.

17. A.Ş. Şəkərəliyev, C.Q. Nuriyev, A.Ə. Əliyev (2005) "Gömrük işinin təşkili və idarə edilməsi" *(dərslik)*, Bakı, "Elm".-243 səh.

18. A.Ş. Şəkərəliyev (1999) "Beynəlxalq İqtisadi Münasibətlər" *(monoqrafiya)*, Bakı, "ADİU nəşriyyatı".-199 səh.

**Xarici dildə**

19. А.А. Демичев (2015) Основы таможенного дела: учебник / А. А. Демичев, А. С. Логинова. - СПб: Интермедия.-233 с.

20. С.А. Дроздова (2015) Таможенное право: учебное пособие / С. А. Дроздова. - СПб.: Интермедия.-238 с.

21. О.Г. Гущина (2015) Таможенная стоимость товаров: учебное пособие / О. Г. Гущина. - СПб.: Интермедия. -349 с.

22. Е.В. Жиряева (2015) Правовое регулирование ВЭД: учебное пособие / Е. В. Жиряева. - СПб: Интермедия. -238с.

23. Е. М. Ксенофонтова (2014) Основы таможенного дела: учебное пособие / Е. М. Ксенофонтова. - СПб.: СПбГЭ.-48 с.

24. Г. А. Маховикова (2016) Таможенное дело. Учебник / Г. А. Маховикова, Е. Е. Павлова. – М.: Юрайт. 422с.

25. В. В. Покровская (2014) Таможенное дело. Учебник / В. В. Покровская. – М.: Юрайт.-450 с.

26. О.Г. Старикова (2014) Основы таможенного дела. Учебник / О. Г. Старикова. – М.: ИЦ Интермеди. -422с.

27. С.В. Халипов (2013) Таможенное право: учебник / Халипов С.В. Базовый курс. – М.: Юрайт-Издат.-322с.

28. Н. Д. Эриашвили (2015) Таможенное дело: учебник для студентов вузов / Н.Д. Эриашвили, Ю.А. Щербинин, В.Н. Голую, А. В. Лобиков, Т. В. Лорткипанидзе, М.А. Федоровская. - М.: ЮНИТИ-ДАНА: Закон и право. -455с.

**İnternet resursları**

29. http://www.customs.gov.az

30. http://www.azstat.org

31. http://www.az-customs.net

32. http://www.economy.gov.az

33. http://www.trade.ec.europa.eu

34. http://www.budjet.az

# ƏLAVƏ 1

**Şəkil 2: Xarici ticarətdə mobilliyin təmin olunmasında tam iqtisadi inteqrasiya**




**Mənbə:** http://www.metbuat.az (12.12.2018)

# ƏLAVƏ 2

**Sxem 3: Xarici iqtisadi əlaqələrin nəzəriyyələrinin (konsepsiyalarının) təkamülü**




**Mənbə:** K.F. Sadiqov, K.S. Qafarov, N.N. Bədirov "Xarici iqtisadi fəaliyyətin makroiqtisadi tənzimlənməsi" mənbəyi əsasında "Müəllif tərəfindən tərtib edilmişdir".

# ƏLAVƏ 3

**Qrafik 1: MDB ölkələrinin gömrük sisteminin göstəricilərə görə dinamikası (2018-ci il üzrə)**




**Mənbə:** K.F. Heydərov, C.Q. Həsənov "Azərbaycan Gömrük xidməti yeni dünya təsərrüfat münasibətləri şəraitində" mənbəyi əsasında "Müəllif tərəfindən tərtib edilmişdir".

# ƏLAVƏ 4

**Qrafik 2: Xarici ticarət dövriyyəsinin  dinamikası (mln.ABŞ dolları ilə) (2018-ci  il üzrə)**




**Mənbə:** A.Ş. Şəkərəliyev "Beynəlxalq İqtisadi Münasibətlər" mənbəyi əsasında "Müəllif tərəfindən tərtib edilmişdir".

## Cədvəllərin siyahısı

Cədvəl 1. Gömrük rüsumları.........................................................................42
Cədvəl 2. 2018-cı ilin advalor gömrük ödənişləri (min AZN)............................44

## Şəkillərin siyahısı

Şəkil 1. Təhlilin məqsədləri.........................................................................13
Şəkil 2. Xarici ticarətdə mobilliyin təmin olunmasında tam iqtisadi inteqrasiya....63
Şəkil 3.Xarici iqtisadi əlaqələrin nəzəriyyələrinin (konsepsiyalarının) təkamülü...64
Şəkil 4. İstehsalçılar və istehlakçılar arasında əlaqənin koordinasiyası.............23
Şəkil 5. Dövlət Gömrük Komitəsinin strukturuna daxil olan orqanların ümumi görünüşü.........................................................................................30
Şəkil 6. Gömrük tarif tənzimlənməsi (xarici ölkələrdə) (faizlə) (2018-ci il üzrə)..........................................................................................43
Şəkil 7. Xarici ticarət dövriyyəsinin strukturunda xarici ölkələrin çəkisi.........49

## Qrafiklərin siyahısı

Qrafik 1. MDB ölkələrinin gömrük sisteminin göstəricilərə görə dinamikası (2018-ci il üzrə)...................................................................................65
Qrafik 2. Xarici ticarət dövriyyəsinin dinamikası (mln.ABŞ dolları ilə) (2018-ci il üzrə)..........................................................................................66